## HEYDƏR ƏLİYEV MƏRKƏZİNDƏ “OXU GÜNÜ” KEÇİRİLİB



Heydər Əliyev Mərkəzinin parkında ənənəvi olaraq təşkil edilən “Oxu günü” keçirilib. AZƏRTAC xəbər verir ki, tədbir Heydər Əliyev Mərkəzi, Təhsil Nazirliyi, “Regional İnkişaf” İctimai Birliyinin təşkilatçılığı, Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikası Gənclər Fondunun və “Hədəf Nəşrləri”nin tərəfdaşlığı ilə reallaşıb. “Gəlin birgə oxuyaq!” şüarı altında keçirilən “Oxu günü”nün məqsədi yeniyetmə və gənclər arasında mütaliə mədəniyyəti və oxu vərdişinin inkişafı, kitaba marağın artırılmasıdır...

Bax səh. 8

## “ISRAEL HAYOM” QƏZETİ: “AZƏRBAYCAN MÜQƏDDƏS ODLAR YURDUDUR”

İsraildə çıxan nüfuzlu “Israel Hayom” qəzetində “Azərbaycan müqəddəs Odlar Yurdudur” sərlövhəli məqalə dərc edilib. AZƏRTAC həmin məqaləni təqdim edir. Gözəl Bakı şəhərinin küçələrinə ekskursiya sizi Qafqazın guya Qərbin şərq hissəsi olması barədə fikirlərdən yayınmağa məcbur edəcək. Gələn həftə Azərbaycan paytaxtında Formula 1 yürüşləri keçiriləcək. Şəhər bu mühüm beynəlxalq idman tədbirinə hazırlaşır. Bakıda olduğumuz bir neçə saat müddətində...




Bax səh. 5



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 23 aprel 2019-cu il, çərşənbə axşamı / № 072 (5447). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar büdcə gəlirlərinin və ölkənin maliyyə imkanlarının artmasına səbəb olub



*Prezident İlham Əliyev: Artıq bu ilin əvvəlindən büdcəyə kifayət qədər böyük məbləğ daxil oldu və yığılan əlavə büdcə gəlirləri mənim göstərişimlə, ilk növbədə, vətəndaşların sosial müdafiəsinə istiqamətləndirilməlidir, o cümlədən maaşların, pensiyaların qaldırılmasına*



## Prezidentin iş günü

Prezident İlham Əliyev Ukraynanın yeni seçilmiş Prezidenti Vladimir Zelenskiyə təbrik məktubu göndərib.

◆ ◆ ◆

Prezident İlham Əliyev Qazax rayonunun Daş Salahlı-Ürkməzli-Dəmirçilər avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

## Azərbaycanın regionlarında əhalinin su təchizatının yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır

...Ehtiyatları daxili mənbələr hesabına formalaşan Şəmkirçay su anbarı strateji əhəmiyyətli obyektdir. Ümumi su tutumu 165 milyon kubmetr olan anbarın potensial ehtiyatı dayanıqlı içməli su təchizatı baxımından mühüm əhəmiyyət daşıyır. Üstəlik burada toplanan yerüstü suların təbii durulmadan keçməsi suyun emalını asanlaşdırır. Bütün bunlar nəzərə alınaraq “Azərsu” ASC-nin sifarişi ilə su anbarının yaxınlığında məhsuldarlığı sutkada 140 min və ya saniyədə 1,6 kubmetr olan sutəmizləyici qurğu tikilir. Kompleksdə hər birinin tutumu 2500 kubmetr olan 3 ədəd su anbarı, anbarların idarəetmə otağı, xlorator qurğusu, elektrik yarımstansiyası inşa edilib, ehtiyat generator alınaraq ərazidə quraşdırılıb. Hazırda qurğuda emal avadanlıqlarının quraşdırılması işləri aparılır. Qurğunun su təminatı Şəmkirçay su anbarından ayrılan...

Bax səh. 8

## M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialında ənənəvi olaraq “Açıq qapı” günü keçirilib



Aprelin 20-də M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) Bakı filialında 2019-2020-ci tədris ili üçün bu ali məktəbə qəbulun şərtləri və qaydaları ilə tanışlıq məqsədilə “Açıq qapı” günü keçirilib...

Bax səh. 4



## “UĞURLU SOSİAL SİYASƏTİN YENİ HƏDƏFLƏRİ”

Aprelin 20-də Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə Şəki şəhərində “Uğurlu sosial siyasətin yeni hədəfləri” mövzusunda regional müşavirə keçirilib. Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov və müşavirə iştirakçıları əvvəlcə Şəki şəhərində Ümummilli Lider Heydər Əliyevin...

Bax səh. 3

## NAZİRLƏRİN MOSKVA GÖRÜŞÜ: EHTİMALLAR, SSENARİLƏR VƏ ÜMİDLƏR

Aprelin 15-də Azərbaycan və Ermənistan xarici işlər nazirləri Moskvada Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı müzakirələr aparıblar. Prosesdə Rusiyanın xarici işlər naziri də iştirak edib. Danışıqlardan sonra bəyanat yayılıb. Tərəflər bütövlükdə müzakirələri müsbət qiymətləndiriblər. Ekspertlər də müəyyən analizlər əsasında proqnozlar verməyə çalışırlar. Hiss olunur ki, bir sıra hallarda real vəziyyəti deyil, kimlərsə özlərinə sərf edən ssenariləri ortaya atırlar. Əslində, Moskva danışıqları Vyana görüşündə əldə edilən razılıqların məntiqi nəticəsidir. Onları bu kontekstdən çıxarmaq reallığı təhrif etməkdir. Vyanada isə müəyyən məqamlar öz əksini tapmışdı. Məsələn, danışıqlar formatı dəyişməzdir. Moskvada bunu inkar edəcək bir hadisə baş vermədi. Bundan əlavə, Azərbaycanın ərazi bütövlüyü vacib prinsip kimi nəzərə alınmalıdır. Moskvada da bu barədə danışılıb. Eyni zamanda, bir sıra humanitar addımların atılması da gündəmdə olub...

Bax səh. 7



## YAP NƏSİMİ RAYON TƏŞKİLATI GƏNCLƏR BİRLİYİNİN V HESABAT-SEÇKİ KONFRANSI KEÇİRİLİB

Dünən Yeni Azərbaycan Partiyası (YAP) Nəsimi rayon təşkilatı Gənclər Birliyinin V hesabat-seçki konfransı keçirilib. Konfransda Milli Məclis sədrinin birinci müavini, YAP Siyasi Şurasının üzvü Ziyafət Əsgərov...

Bax səh. 3

## Azərbaycana qarşı aparılan “qara piar” kampaniyası iflasa məhkumdur

Azərbaycan dinamik inkişaf yolunda əmin addımlarla irəliləyir, həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər bütün sahələrdə möhtəşəm nailiyyətlərin qazanılmasını təmin edir. Bu gün müasir Azərbaycanın reallıqlarına nəzər salarkən bir sıra məqamları xüsusi vurğulamaq gərəkdir. Əvvəla qeyd edək ki, son 15 ildə Azərbaycanın iqtisadi cəhətdən güclü, özünü təmin edən, rəqabətədavamlı ölkəyə çevrilməsi məhz Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin real nəticəsidir. Digər tərəfdən, ölkəmizdə sosial sahədə həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər əhalinin rifahının daha da yüksəlməsinə səbəb olub. Bununla yanaşı, öz müstəqil siyasəti ilə dünyada, beynəlxalq münasibətlər sistemində böyük nüfuz qazanan Azərbaycanın...

Bax səh. 4

## Hanoyda AZƏRTAC və Yonhap informasiya agentlikləri rəhbərlərinin görüşü olub



Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının (OANA) İcraiyyə Komitəsinin Hanoyda keçirilmiş 44-cü iclası çərçivəsində...

Bax səh. 6

## “Azərbaycanda regional inkişafın idarə olunmasında yeni istiqamətlər” mövzusunda respublika elmi konfransı keçirilib



Aprelin 22-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) “Azərbaycanda...

Bax səh. 6

## Fransanın Nant şəhərində Azərbaycan məktəbi açılıb



Aprelin 20-də Fransanın Nant şəhərində Azərbaycan məktəbinin açılışı olub. Bu məktəb Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın...

Bax səh. 7

## Paytaxtda əhali ilə fəal görüşlər aylığına start verilir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət qurumları rəhbərlərinin yerlərdə əhali ilə görüşlərinin keçirilməsi ilə bağlı tapşırığına uyğun olaraq yerlərdə sakinlərin arzu və istəklərinin...

Bax səh. 8

# Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar büdcə gəlirlərinin və ölkənin maliyyə imkanlarının artmasına səbəb olub

***Prezident İlham Əliyev:** Artıq bu ilin əvvəlindən büdcəyə kifayət qədər böyük məbləğ daxil oldu və yığılan əlavə büdcə gəlirləri mənim göstərişimlə, ilk növbədə, vətəndaşların sosial müdafiəsinə istiqamətləndirilməlidir, o cümlədən maaşların, pensiyaların qaldırılmasına*

*Müstəqil Azərbaycanın dünyada böyük maraqla izlənilən nümunəvi inkişaf modelinin ən səciyyəvi cəhətlərindən biri ölkədə genişməzmunlu islahatların həyata keçirilməsi ilə bağlıdır. Respublikamız öz siyasətini zamanın dəyişən tələbləri ilə məharətlə uzlaşdırır. Belə ki, ölkəmizdə prioritet sahələrin üstün inkişafının təmin edilməsinə hesablanan islahatlar həyata keçirilərkən mütləq qlobal miqyasda meydana çıxan yeni trendlər və çağırışlar nəzərə alınır, eyni zamanda, mövcud daxili potensial və cəmiyyətin sosial sifarişləri əsas götürülür. Belə bir rasional vəhdətin təmin edilməsi öz növbəsində islahatların uğurla həyata keçirilməsini və bunun nəticəsi olaraq respublikamızın bütün istiqamətlərdə böyük uğurlara imza atmasını şərtləndirir.*



## ÖLKƏMİZDƏ APARILAN İSLAHATLAR BİR-BİRİNİ TAMAMLAYIR

Azərbaycanda inkişafın ardıcıllığına nail olmaq və bu əsasda əhalinin rifah halının davamlı şəkildə yüksəlməsini təmin etməkdən ötrü fundamental əsaslar, güclü iqtisadi baza yaradılması daim diqqət mərkəzində saxlanılır. Aydın məsələdir ki, iqtisadi-maliyyə imkanları olmadan insanların həyat səviyyəsinin yaxşılaşdırılmasını hədəfləyən güclü sosial siyasətin reallaşdırılmasından söhbət açmaq da absurddur. Praqmatik siyasətçi olan Prezident İlham Əliyev dünya təcrübəsində də özünü doğruldan bu amili nəzərə alaraq ölkəmizin iqtisadi potensialından, əmək resurslarından daha səmərəli istifadə edilməsinə yönələn siyasət həyata keçirir. Son 15 ildə respublikamızın həyatı iqtisadi potensialın artırılmasına, maliyyə imkanlarının genişləndirilməsinə hesablanan genişməzmunlu islahatlarla səciyyələnib. Ölkəmizdə aparılan islahatlar bir qayda olaraq dərin konseptual əsaslandırmalar və yeni yanaşmalara uyğun şəkildə hazırlanaraq həyata keçirilir. Əsas məqamlardan biri ondan ibarətdir ki, islahatlar kompleks səciyyə daşıyır və bir-birini tamamlayır. Prezident İlham Əliyev ölkədə biznes mühitinin optimallaşdırılması, bank-maliyyə sektorunda inklüzivliyin daha da artırılması, daxili istehsalın qorunması, vergi bazasının genişləndirilməsi, gömrük nəzarətinin sadələşdirilməsi və şəffaflığın təmin olunması, istehsal imkanlarının artırılması, investisiya qoyuluşunun, ixracın təşviq edilməsi, "Made in Azerbaijan" brendinin yaradılması və sosial sfera da daxil olmaqla digər sahələri əhatə edən çoxsaylı Fərman və sərəncamlar imzalayıb. Dövlət başçısının müvafiq Fərmanına əsasən milli iqtisadiyyat perspektivi və onun 11 əsas sektoru üzrə strateji yol xəritələri təsdiqlənib. Bəhs olunan strateji yol xəritələrində ayrı-ayrı istiqamətlər üzrə yaxın, orta və uzunmüddətli dövr üçün inkişaf prioritetləri və onlara çatmaq üçün görüləcək tədbirlərin geniş spektri müəyyənləşdirilib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət sayəsində Azərbaycan güclü iqtisadiyyat quruculuğuna nail olub. Son 15 ildə milli iqtisadiyyatımız 3 dəfədən çox olmaqla genişlənib ki, bu da dünyada ən yaxşı göstəricilərdən biri hesab olunur. Bu gün respublikamızın Cənubi Qafqazın ən güclü iqtisadiyyata malik ölkəsinə çevrilməsi son dərəcə qürurverici haldır. Təsadüfi deyil ki, regionda bütün qlobal əhəmiyyətli enerji və nəqliyyat layihələri məhz Azərbaycanın moderatorluğu ilə reallaşdırılır. Başqa bir qürurverici fakt ondan ibarətdir ki, rəqabətqabiliyyətliliyinə görə Azərbaycan iqtisadiyyatı MDB məkanında birinci yerə yüksəlib.

Qeyd olunduğu kimi, ölkəmizdə iqtisadi potensialın artırılmasına hədəflənən islahatlar davamlı səciyyə daşıyır. Bu proses respublikamızda 2019-cu ilin əvvəlindən daha aktiv fazaya daxil olub. Milli iqtisadiyyatımız qlobal böhranın mənfi təsirlərini dəf edərək inkişafa istiqamətlənib. Hazırda respublikamızın qarşısında duran bütün vəzifələrin icrası yüksək səviyyədə təmin olunur. 2019-cu ilin əvvəlindən bəri əldə olunan göstəricilər deyilənləri bir daha təsdiqləyir. Respublikamızda son dövrlərin ən yaxşı iqtisadi inkişaf göstəriciləri məhz cari ilin arxada qalan aylarında əldə olunub. Prezident İlham Əliyev bir qədər bundan əvvəl Bakının Kürdəxanı qəsəbəsində 810 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış kompleksinin açılışından sonra məcburi köçkünlərlə keçirdiyi görüşdəki çıxışında ölkəmizdə 2019-cu ilin ilk aylarında əldə olunan müsbət iqtisadi göstəricilərdən məmnunluğunu bildirərək deyib ki, keçən il artıq iqtisadi inkişaf başlamışdır, bu ilin iki ayının yekunları var. Bu yekunlar çox müsbətdir, iqtisadi artım kifayət qədər yüksəkdir, 3 faizə yaxındır. Qeyri-neft sektorunda sənaye istehsalı 15 faizdən çox artıbdır.

Eyni zamanda, aparılan iqtisadi islahatlar Azərbaycanın büdcəsinə əlavə gəlirlərin gəlməsinə və ölkənin maliyyə imkanlarının artmasına səbəb olub. Prezident İlham Əliyev bundan məmnunluğunu ifadə edərək bildirib ki, **"Bu islahatlar bizim maliyyə imkanlarımızı genişləndirir. Biz bu əlavə vəsaiti, ilk növbədə, sosial məsələlərə yönəldirik".**

Biz yuxarıda müstəqil Azərbaycanın son 15 ildə inamlı inkişaf dinamikasından söhbət açdıq. Qarşıya qoyulan əsas vəzifə də elə ölkənin dinamik inkişafını gələcəkdə də davam etdirməklə bağlıdır. Yeni şəraitdə həyata keçirilən islahatlar məhz Azərbaycanın bundan sonra da inamlı inkişafını təmin etməyə hesablanıb. Prezident İlham Əliyev yuxarıdakı çıxışında qarşıda duran vəzifələrlə, perspektiv inkişafla bağlı mesajlarını nəzərə çatdırıb. Respublikamızın qarşısında duran hədəflərə diqqət çəkən Prezident İlham Əliyev deyib: **"Verdiyim qərarlar, imzaladığım sərəncamlar həyatımızın hər bir sahəsinə müsbət təsir göstərəcək. Ölkəmiz yeniləşir, müasirləşir. Biz yeni iqtisadi model üzərində işləyirik və elə etməliyik ki, ölkə iqtisadiyyatı bundan sonra da dayanıqlı şəkildə inkişaf etsin".**

*"Keçən il artıq iqtisadi inkişaf başlamışdır, bu ilin iki ayının yekunları var. Bu yekunlar çox müsbətdir, iqtisadi artım kifayət qədər yüksəkdir, 3 faizə yaxındır"*

## AZƏRBAYCANDA DİNAMİK İQTİSADİ İNKİŞAF GÜCLÜ SOSİAL SİYASƏTLƏ TAMAMLANIR

Azərbaycanda iki mühüm sahədə - ölkənin iqtisadi qüdrətinin artırılması və sosial məsələlərin adekvat şəkildə həll edilməsi istiqamətində görülən işlər paralel şəkildə həyata keçirilir və bir-birini tamamlayır. Bu da Azərbaycanı unikal sosial-iqtisadi inkişaf modelinə malik ölkə kimi səciyyələndirir. Respublikamızda ədalətli resurs bölgüsü həyata keçirilir, qayğıya ehtiyacı olan bütün vətəndaşlar dövlət tərəfindən dəstəklənir. Bütövlükdə, iqtisadi inkişafın yaratdığı imkanlardan, milli gəlirdən cəmiyyətin bütün təbəqələri bəhrələnirlər.

Məlum olduğu kimi, son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində respublikamızın dinamik iqtisadi inkişafı öz növbəsində Azərbaycanı geniş maliyyə imkanlarına malik ölkəyə çevirib. Respublikamiz bir tərəfdən irimiqyaslı infrastruktur layihələrinə böyük həcmlərdə investisiyalar yönəldir, digər tərəfdən isə özünün strateji valyuta ehtiyatlarını artırır. Hazırda respublikamız 45 milyard dollar həcmində strateji valyuta ehtiyatlarına malikdir və adambaşına düşən strateji valyuta ehtiyatlarına görə bütün dünya üzrə yüksək yerlərdən birini tutur. Qürurverici haldır ki, bu gün milli iqtisadiyyatımız heç bir xarici maliyyə mənbəyindən asılı deyil. Əksinə, respublikamız ölkə hüdudlarından kənarda investisiya fəallığını getdikcə artırır.

Ölkəmizin maliyyə imkanlarının genişlənməsi 2019-cu ilin arxada qalan dövrü ərzində də davam edib. Respublikanın gəlirlərinin artması fonunda isə sosial sahəyə daha böyük həcmlərdə vəsait yönəltmək imkanları yaranıb. Bunu nəzərə çatdıran Prezident İlham Əliyev **"Mən deyə bilərəm ki, aparılan tədbirlər nəticəsində təkcə ilin birinci rübündə büdcə daxilolmaları 200 milyon manatdan çox artıb. Bu, nəyin hesabınadır - şəffaflığın, yeni yanaşmanın və islahatların. Bu, bizə imkan verir ki, bu vəsaiti vətəndaşların rifah halının yaxşılaşmasına yönəldək və bunu da etdik",** - deyə vurğulayıb.

Cari ilin əvvəlindən şəffaflığın təmin edilməsinin və digər islahat tədbirlərinin məntiqi nəticəsi olaraq respublikamızda sosial islahatlar daha aktiv fazaya daxil olub. Ölkəmizdə Prezident İlham Əliyev tərəfindən hələ ötən il elan olunan ciddi sosial paket uğurla reallaşdırılır. 2019-cu ilin ilk aylarında minimum əməkhaqqının, minimum pensiyanın, tələbələrin təqaüdlərinin artırılması, digər ödənişlərin verilməsi böyük sosial paketin tərkib hissəsidir. Prezident İlham Əliyevin "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi" haqqında Fərmanı mənzil idarəçiliyi baxımından problemlərin həllinə gətirib çıxaracaq, vətəndaşların mənzil və yaşayış şəraitinin yaxşılaşmasına, o cümlədən sosial rifahının daha da yüksəlməsinə müsbət təsir göstərəcək. Bu inqilabi qərarla Prezident İlham Əliyev 300-400 min insanı əhatə edən çoxmənzilli binalarla bağlı "çoxillik həllolunmaz problem"ə son qoyub.

Məlum olduğu kimi, dövlət başçısı İlham Əliyev ötən il keçirilən prezident seçkilərindən sonra - 2018-ci il 19 aprel tarixində "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" müvafiq Fərman imzalayıb. Bəhs olunan sənədə əsasən 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə bu Fərmanla müəyyənləşdirilmiş qaydada 11.000 (on bir min) manat məbləğində birdəfəlik ödəmə verilməsi nəzərdə tutulub. Ölkəmizdə bəhs olunan Fərmanın icrasına ötən il noyabrın 14-dən başlanılıb. Dövlət başçısının 28 yanvar 2019-cu il tarixində imzaladığı digər Fərmanla isə birdəfəlik ödəmə veriləcək şəhid ailələrinin əhatə dairəsi daha da genişlənib. Belə ki, sənədə əsasən Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda 1997-ci ilin avqust ayının 2-dək şəhid olmuş əlavə 2725 şəhidin (o cümlədən 11000 manatdan az sığorta ödənişi almış 2264 şəhid hərbi qulluqçunun və 461 şəhid polisin) vərəsələrinə də birdəfəlik ödəmənin verilməsi tapşırılıb. Yeni Fərmanla birdəfəlik ödəmənin verilməsi prosesi artıq 12268 şəhidin vərəsələrini əhatə edir və bu məqsədlər üçün ümumilikdə 135 milyon manat vəsait nəzərdə tutulur.

*"Verdiyim qərarlar, imzaladığım sərəncamlar həyatımızın hər bir sahəsinə müsbət təsir göstərəcək"*

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev 2019-cu il fevralın 28-də "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Fərman imzalayıb. Fərmanla nəzərdə tutulan güzəştlərdən sənəddə göstərilən dövrlərdə xarici valyutada kredit götürmüş fiziki şəxslər faydalanacaqlar. Məlumdur ki, indiyədək bəzi xarici ölkələrdə də bu kimi təşəbbüslər irəli sürülüb. Lakin son nəticədə dövlətin imkanları baxımından ciddi çətinliklər yaratdığına görə problemin həlli ya təxirə salınıb, yaxud da bəlli olmayan müddətə kimi uzadılıb. Azərbaycan isə o dövlətlərdəndir ki, burada bütün məsələlər - problemin ciddiliyi, ağırlıq yükü, onun həllinin büdcəyə, əhalinin rifah halının yüksəlməsinə təsiri, həll üçün maliyyə imkanları, səmərəli tətbiq mexanizminin işlənib hazırlanması, icrası və icraya nəzarət və s. - hərtərəfli araşdırıldıqdan sonra müvafiq qərar qəbul olunur. Birmənalı şəkildə demək olar ki, 2019-cu ilin əvvəlindən sosial sahədə qəbul olunmuş qərarlar, o cümlədən də problemli kreditlərin həlli öz miqyasına, əhatə dairəsinə görə, sözün əsl mənasında, inqilabi qərarlardır. Azərbaycan əhalinin sosial məsələlərinin həllində bütün dünyaya növbəti dəfə öz liderliyini nümayiş etdirib.

Deyilənlərdən də göründüyü kimi, ölkədə Prezident İlham Əliyevin siyasi iradəsi əsasında reallaşdırılan böyük sosial paketin əhatə dairəsi kifayət qədər genişdir. Bütövlükdə, respublikada reallaşdırılan sosial paketdən təqribən 3 milyona yaxın insan faydalanacaq.

## RESPUBLİKADA 600 MİN İNSAN SOSİAL MÜAVİNƏTLƏRİN İKİ DƏFƏ ARTIRILMASI PROQRAMI İLƏ ƏHATƏ OLUNUB

Cari ildə Prezident İlham Əliyevin əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə imzaladığı sənədlərin bir qismi sosial müavinətlərin artırılması ilə bağlıdır. Məlum olduğu kimi, dövlət başçısı 2019-cu il 25 fevral tarixində "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlərə dair" növbəti Sərəncam imzalayıb. Sənəddə də vurğulandığı kimi, Sərəncamın imzalanmasında məqsəd əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində tədbirləri davam etdirmək və bu tədbirlərin əhatə dairəsini daha da genişləndirməkdir. Dövlət başçısının imzaladığı "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlərə dair" Sərəncamla sosial müavinətlər əhəmiyyətli dərəcədə artırılıb.

*"Minimum əməkhaqqı, minimum pensiya Azərbaycanda bundan sonra da qaldırılacaq ki, vətəndaşlar daha da yaxşı yaşasınlar"*

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildirilib ki, Prezident İlham Əliyevin 15 aprel 2019-cu il tarixində imzaladığı müvafiq Sərəncam və fərmanlarda bir sıra kateqoriyalardan olan vətəndaşlara verilən sosial müavinətlərin və Prezident təqaüdlərinin aprelin 1-dən orta hesabla 100 faiz artırılması, yeni təqaüd növlərinin təsis olunması nəzərdə tutulub. Bu sənədlər dövlət başçısının iradəsi ilə reallaşdırılan böyük sosial paketin əhatə dairəsinin getdikcə genişləndiyini, xüsusilə də həssas qruplardan olan vətəndaşların rifah halının yaxşılaşdırılması istiqamətində önəmli addımların atıldığını təsdiqləyir.

Beləliklə, aprelin əvvəlindən qüvvəyə minən qərara əsasən sosial müavinətlər iki dəfə artırılıb və 600 minə yaxın insan bu proqramla əhatə olunub. Qeyd olunan məqsədlər üçün əlavə olaraq illik 400 milyon manat ayrılmaqla, sosial müavinət və təqaüdlərin verilməsinə yönələn illik vəsait 2 dəfə artırılacaq. Bütün bu addımlar Prezident İlham Əliyevin ardıcıllıqla həyata keçirdiyi güclü sosial siyasətin əsasında məhz vətəndaş amilinin, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir.

## ƏMƏKHAQLARININ VƏ PENSİYALARIN ARTIRILMASI BUNDAN SONRA DA TƏMİN EDİLƏCƏK

Respublikamızda əhalinin gəlir imkanlarının artırılması istiqamətində müxtəlif tədbirlər görülür. O cümlədən ölkəmizdə əməkhaqlarının və pensiyaların davamlı olaraq artırılması kimi gözəl ənənənin formalaşması əhalinin maddi təminatının möhkəmlənməsində mühüm rol oynayır. Prezident İlham Əliyev bu günlərdə Bakının Suraxanı rayonunun Qaraçuxur qəsəbəsində əsaslı şəkildə yenidən qurulan Neftçilər parkında sakinlərlə söhbət zamanı respublikamızda minimum əməkhaqqının və minimum pensiyanın 40 faiz artırılmasını önəmli addım kimi səciyyələndirib, eyni zamanda, bildirib ki, maaşlar və pensiyalar bundan sonra da artırılacaq: **"Minimum əməkhaqqının, minimum pensiyanın təxminən 40 faiz qaldırılması da önəmli addımdır. Ancaq onu da deməliyəm ki, bu artım böyük olsa da, bizi qane edə bilməz. Çünki bizdə maaşlar və pensiyalar bundan sonra da qaldırılacaq. Müvafiq göstəriş verildi. İndi hökumətdə iş aparılır, müvafiq nazirliklərə göstəriş verilib. İndi bizim maliyyə imkanlarımız artıb. Çünki ölkəmizdə aparılan ciddi iqtisadi islahatlar bizə əlavə gəlirlər gətirib. Artıq bu ilin əvvəlindən büdcəyə kifayət qədər böyük məbləğ daxil oldu və yığılan əlavə büdcə gəlirləri mənim göstərişimlə, ilk növbədə, vətəndaşların sosial müdafiəsinə istiqamətləndirilməlidir, o cümlədən maaşların, pensiyaların qaldırılmasına. Baxmayaraq ki, biz mart ayında bu qərarı qəbul etdik və aprelin əvvəlindən sosial müavinətlərin artımı qüvvəyə mindi, burada da sosial müavinətlər orta hesabla iki dəfə artırılıb və 600 minə yaxın insan bu proqramla əhatə olunub. Bu istiqamətdə işlər davam etdiriləcək. Minimum əməkhaqqı, minimum pensiya Azərbaycanda bundan sonra da qaldırılacaq ki, vətəndaşlar daha da yaxşı yaşasınlar".**

Qeyd edək ki, ölkəmizdə əməkhaqlarının artırılması tendensiyası 2019-cu ildə də davam etdirilir. Prezident İlham Əliyev 8 fevral 2019-cu il tarixində "Minimum aylıq əməkhaqqının artırılması və "Minimum aylıq əməkhaqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 3545 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" müvafiq Sərəncam imzalayıb. Bəhs olunan Sərəncama əsasən, ölkəmizdə minimum əməkhaqqının yaşayış minimumuna (180 manat) çatdırılması təmin edilib. Minimum əməkhaqqının mart ayının 1-dən etibarən 180 manata çatdırılması dövlət sektorunda işləyən 450 min nəfərin əməkhaqqında 30 faiz, özəl sektorda işləyən 150 min nəfərin əməkhaqqında isə 25 faiz artıma gətirib çıxaracaq.

Ölkəmizdə pensiyalar da mütəmadi qaydada artırılır. Məlumat üçün bildirək ki, ölkədə 1,3 milyon pensiyaçı var. Onlardan 58,3 faizi yaşa görə, 30,1 faizi əlilliyə görə, 11,6 faizi ailə başçısını itirməyə görə pensiya alır. Ötən il əmək pensiyalarının orta aylıq məbləğində 6,8 faiz, o cümlədən yaşa görə əmək pensiyalarının məbləğində 7,3 faiz artım qeydə alınıb. Prezident İlham Əliyev 7 fevral 2019-cu il tarixində "Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında" Sərəncam imzalayıb. Dövlət başçısı tərəfindən əmək pensiyasının minimum məbləğinin əhəmiyyətli şəkildə artırılmasına dair irəli sürülən yeni təşəbbüs də əhalinin sosial müdafiəsinin möhkəmləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır. Respublikamızda minimum pensiyaların məbləği təxminən 38 faiz artırılaraq 116 manatdan 160 manata çatdırılıb. Vurğulamaq yerinə düşər ki, bu gün minimum pensiyanın səviyyəsinə görə Azərbaycan MDB məkanında ikinci yerdə qərarlaşıb.

**Mübariz ABDULLAYEV**

# “Uğurlu sosial siyasətin yeni hədəfləri”

## Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Şəki şəhərində bu mövzuda regional müşavirə keçirilib








## *Əli Əhmədov: Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin əsas qayəsini insanların rifahının yaxşılaşdırılması təşkil edir*

Aprelin 20-də Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə Şəki şəhərində “Uğurlu sosial siyasətin yeni hədəfləri” mövzusunda regional müşavirə keçirilib. Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov və müşavirə iştirakçıları əvvəlcə Şəki şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsinin önünə gül dəstələri düzüb, dahi rəhbərin xatirəsini ehtiramla yad ediblər.

Baş nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədovun rəhbərliyi ilə keçirilən müşavirədə Milli Məclisin deputatlarından Fəttah Heydərov, Yaqub Mahmudov, Azər Kərimli, Aqiyə Naxçıvanlı, Kamilə Əliyeva, Nəsib Məhəməliyev, Əli Məsimli, Cavanşir Feyziyev, Elşən Musayev, partiyanın rayon təşkilatlarının sədrləri, Şəki rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Müşavirəni giriş sözü ilə açan Şəki şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov rayonda sosial sahə ilə bağlı görülən işlər haqqında məlumat verib.

Müşavirədə çıxış edən Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov bildirib ki, 1 il bundan öncə xalqımız növbəti dəfə cənab İlham Əliyevə səs verərək, Onu yenidən Prezident seçdi: **“Xalqımız bu addımla yenidən Ulu Öndər Heydər Əliyev siyasətinin davam etməsinə öz razılığını bildirdi”.**

Baş nazirin müavini deyib ki, 2018-ci ildə keçirilən seçkilərdən 1 il sonrakı müddət ərzində çox əhəmiyyətli, həyatımızın bütün sahələrini əhatə edən dəyişikliklər baş verib: **“Bu dəyişikliklər içərisində xüsusi diqqəti cəlb edən məsələ vətəndaşlarımızın rifah halının yaxşılaşdırılması ilə əlaqədar çox əhəmiyyətli və genişmiqyaslı strategiyanın reallaşmasıdır. Prezident seçkilərindən sonra cənab İlham Əliyevin imzaladığı ilk Fərman da vətəndaşlarımızın sosial rifah halının yaxşılaşdırılması ilə əlaqədar olub. Ötən 1 il ərzində həyata keçirilən çoxmiqyaslı tədbirlər çərçivəsində sosial yönümlü, sosial strategiyanın həyata keçirilməsi ilə bağlı Prezident tərəfindən çox vacib sənədlər imzalanıb. Nəticə etibarı ilə Azərbaycan vətəndaşlarının sosial rifahının yaxşılaşdırılması istiqamətində əhəmiyyətli addımlar atılmağa başlanıb”.**







Əli Əhmədov qeyd edib ki, Prezidentin imzaladığı sərəncamlarla Azərbaycanda minimum əməkhaqqı 38 faiz artırılaraq 130 manatdan 180 manata qaldırılıb: **“Beləliklə, Azərbaycanda təxminən 600 mindən çox insanın yaşayış səviyyəsində, aldığı əməkhaqlarında ciddi artım baş verib. Eyni ilə minimum pensiyaların 116 manatdan 160 manata çatdırılması nəticəsində yenə də təxminən 600 mindən çox insanın pensiyasında əhəmiyyətli artım baş verib ki, bu da onların rifahının yaxşılaşmasına kömək göstərəcək”.**

Bildirilib ki, eyni zamanda, Azərbaycan hökumətinin müəyyənləşdirdiyi və illər boyu həyata keçirdiyi müavinətlər, sosial yardımlar, güzəştlərlə əlaqədar da imzalanan Prezident sərəncamları ilə çox ciddi artımlar baş verib: **“Azərbaycanda bütün zümrədən olan vətəndaşlara verilən müavinət, təqaüd və güzəştlər əhəmiyyətli dərəcədə artıb. Elə bir zümrə yoxdur ki, dövlət tərəfindən müəyyənləşdirilən təqaüd, güzəşt və yardımlarda bu və ya digər dərəcədə artımları hiss etməsin. Beləliklə də, Azərbaycan vətəndaşının həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində çox əhəmiyyətli addım atılıb”.**

Baş nazirin müavini məmnunluqla qeyd edib ki, bu addımların atılması, sosial strategiyanın daha qabarıq şəkildə reallaşması, bununla əlaqədar olaraq Prezident tərəfindən imzalanan çox vacib sənədlər iqtisadiyyatımızın inkişafı ilə bağlı olan, həyata keçirilən islahatların məntiqi nəticəsinə, yekunlarına söykənir: **“İqtisadi sahədə, eləcə də digər sahələrdə həyata keçirilən islahatlar Azərbaycan hökumətinin imkanlarının artması nəticəsində reallaşdırılır. Bunun sayəsində bu ildən etibarən sosial siyasətin daha qabarıq şəkildə həyata keçirilməsi istiqamətində addımlar atılır. Hər bir dövlətin həyata keçirdiyi funksiyalar çərçivəsində iki vəzifə fundamental məna və əhəmiyyət kəsb edir. Onlardan biri təhlükəsizliyin təmin edilməsi, ikinci insanların rifahının yaxşılaşdırılmasıdır. Əlbəttə, sevindirici haldır ki, Azərbaycanda Ulu Öndərin qoyduğu ənənəyə sadiqlik, əmin-amanlıq, təhlükəsizlik təmin olunur. Bu gün Azərbaycan dünyanın ən sabit ölkələrindən biridir. İndiki halda dünyanın bir çox ölkələrində baş verən qanlı toqquşmalar, fəlakətlər, müharibələr fonunda Azərbaycanda mövcud olan sabitlik insanların həyatı üçün böyük sərvətdir. Bu sərvət Heydər Əliyev siyasətinin Azərbaycana verdiyi ən böyük nemətlərdən biridir. Prezident İlham Əliyev də bu xətti, strategiyanı uğurla davam etdirir”.**

Əli Əhmədov bildirib ki, sabitlik, əmin-amanlıq insanların təhlükəsiz yaşaması üçün əvəzedilməz şərtdir: **“Sabitlik, təhlükəsizlik ölkənin inkişafının ən ümdə əsaslarından, ilkin şərtlərindən biridir. Təhlükəsizlik, sabitlik olmasa, hər hansı iqtisadi islahatlardan, müşahidə etdiyimiz uğurlardan, nailiyyətlərdən söz açmaq olmaz. Hesab edirəm ki, Azərbaycan vətəndaşları sabit bir ölkənin vətəndaşları olduğu üçün özlərini məmnun və xoşbəxt hesab edə bilərlər. Bütün bunların sayəsində Azərbaycan inkişaf edir. Həyatımızın bütün sferalarında böyük inkişaf gedir. Azərbaycan müasirləşir, yeniləşir, bütün bölgələrimiz sürətlə inkişaf edir, insanların yaxşı yaşaması üçün bütün şərtlər yaradılıb. Bu illər ərzində Azərbaycan köklü şəkildə dəyişib, yeniləşib. Bu inkişaf Şəkidən də yan keçməyib. Azərbaycanın hər yerində hökm sürən inkişaf burada da özünü göstərməkdədir. Bütün bunlar daha çox insanların rahat yaşaması, layiq olduqları səviyyədə şərait və imkanların yaradılması məqsədilə baş verir. Bu mənada sabitlik, əmin-amanlıq baş verən dəyişikliklər üçün ilkin şərtdir”.**

Qeyd olunub ki, Prezident İlham Əliyevin 2003-cü ildən həyata keçirdiyi siyasətin əsas qayəsini insanların rifahının yaxşılaşdırılması təşkil edir: **“Bu istəyin həyata keçirilməsi üçün maddi bazanın yetişdirilməsi vacibdir. İqtisadiyyatı inkişaf etdirmədən, insanları işlə təmin etmədən, onların həyat səviyyəsinin yüksəldilməsi üçün lazım olan resursları qazanmadan sosial rifahın yüksəldilməsi ilə bağlı arzuları reallaşdırmaq mümkün deyil. Bu, xəyaldan başqa bir şey olmayacaq. Ona görə də 2003-cü ildən həyata keçirilən siyasətin qayəsi bu şərtləri formalaşdırmaq, bu şərtlər əsasında insanların rifah halını yaxşılaşdırmaq olub. Məhz bu şərtlər yarandığına görə artıq genişmiqyaslı sosial xarakterli islahatlar, layihələr həyata keçirilməyə başlanıb. Bu layihələrdən Azərbaycan vətəndaşlarının bütün təbəqələri bəhrələnir”.**

Müşavirədə Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov, YAP Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı Yaqub Mahmudov, YAP Balakən rayon təşkilatının sədri Azad Balayev və YAP Zaqatala rayon təşkilatının sədri Habil Qurbanov mövzu ilə bağlı çıxış edib, həyata keçirilən uğurlu sosial siyasət haqqında danışıblar.

# YAP Nəsimi rayon təşkilatı Gənclər Birliyinin V hesabat-seçki konfransı keçirilib

Dünən Yeni Azərbaycan Partiyası (YAP) Nəsimi rayon təşkilatı Gənclər Birliyinin V hesabat-seçki konfransı keçirilib. Konfransda Milli Məclis sədrinin birinci müavini, YAP Siyasi Şurasının üzvü Ziyafət Əsgərov, millət vəkili, YAP Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı, Milli Məclisin deputatı Şahin İsmayılov, Nəsimi rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov, partiyanın Siyasi Şurasının üzvü, YAP Gənclər Birliyinin sədri Seymur Orucov, “Səs” media qrupunun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev, o cümlədən partiyanın və rayon təşkilatının gənclər birliklərinin üzvləri iştirak ediblər.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə çıxış edən Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı ölkəmizdə həyata keçirilən dövlət gənclər siyasətindən, gənclər üçün yaradılan əlverişli şəraitdən danışıb. Millət vəkili əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş gənclər siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini və bunun nəticəsində ölkədə yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclərin formalaşdığını qeyd edib.

Azərbaycanda həyata keçirilən uğurlu dövlət gənclər siyasətindən bəhs edən videoçarxın nümayişindən sonra YAP Nəsimi rayon təşkilatı Gənclər Birliyinin sədr əvəzi Söhrab Həşimov IV konfransdan ötən müddət ərzində görülən işlər barədə hesabat məruzəsi ilə çıxış edib. Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin departament direktorunun müavini Salman Salmanov, Azərbaycan Tibb Universitetinin prorektoru Orxan İsayev və başqaları hesabat məruzəsi ətrafında çıxış edərək, görülmüş işləri qənaətbəxş qiymətləndiriblər.







Sonra çıxış edən Milli Məclis sədrinin birinci müavini, YAP Siyasi Şurasının üzvü Ziyafət Əsgərov bildirib ki, Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayırlar: **“Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsi Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissini artırıb. Partiyamızın sıralarında yüksək intellektli gənclər birləşiblər ki, onlar üzərlərinə düşən vəzifələri yerinə yetirməyə qadirdirlər”.**

Vurğulanıb ki, bu gün gənclər müxtəlif sahələrdə çox uğurla fəaliyyət göstərir, ölkəmizin ümumi inkişafına böyük töhfə verirlər.

O da qeyd olunub ki, müstəqilliyini çətin iqtisadi şəraitdə bərpa edən Azərbaycan, eyni zamanda, erməni təcavüzü nəticəsində çox ciddi iqtisadi böhranla üzləşmişdi. Lakin Ümummilli Liderimiz Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti nəticəsində ölkəmiz bütün çətinliklərdən uğurla çıxdı və bu gün regionun lideri olan Azərbaycan dünyanın aparıcı dövlətləri sırasında özünə layiqli yer tutub.

**“Sevindirici haldır ki, Azərbaycan gəncləri ictimai fəallığı ilə seçilirlər. Gənclərimiz sosial, iqtisadi, humanitar tədbirlərdə fəal iştirak edir, dövlətin gənclər üçün yaratdığı geniş imkanlardan faydalanırlar. Ölkəmizdə gənclər siyasəti hər zaman dövlət siyasətinin mühüm tərkib hissəsi olub. Bunun göstəricilərindən biri də gənclərlə bağlı bir sıra proqramların qəbul edilməsidir. Bu proqramlardan minlərlə Azərbaycan gənci yararlanır”.** Bu fikirləri isə Milli Məclisin deputatı Şahin İsmayılov konfransda səsləndirib.

Konfransda çıxış edən Nəsimi rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov rayon gənclərinin bütün təşəbbüslərinin daim dəstəkləndiyini diqqətə çatdırıb. İcra Hakimiyyətinin başçısı digər gənclər kimi, YAP Nəsimi rayon təşkilatının Gənclər Birliyinin üzvlərinin də ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak etmələrindən məmnunluğunu bildirib, birliyin fəaliyyətini yüksək qiymətləndirib.

Sonra Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov partiyanın böyük siyasi qüvvəyə çevrildiyini, partiyanın gənc üzvlərinin ölkəmizin sosial-iqtisadi həyatının bütün sahələrində fəal iştirak etdiyini deyib. YAP Gənclər Birliyinin gördüyü işlər, həyata keçirdiyi layihələr haqqında geniş məlumat verən Seymur Orucov gənclərin partiya üzvlərinin 40 faizini təşkil etdiyini diqqətə çatdırıb.

“Səs” media qrupunun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev də tədbirdə çıxış edərək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Hazırda dünyada mürəkkəb proseslərin baş verdiyini deyən Bəhruz Quliyev gənclərə təşəbbüskar olmağı tövsiyə edib. O, Prezident İlham Əliyevin ölkə gəncliyinin inkişafını daim diqqət mərkəzində saxladığını bildirib.

Daha sonra təşkilati məsələlərə baxılıb. YAP Nəsimi rayon təşkilatı Gənclər Birliyi Şurasının, İdarə Heyətinin tərkibi müəyyənləşib. Belə ki, Şuraya 35, İdarə Heyətinə isə 17 nəfər seçilib. Səsvermə nəticəsində Salman Salmanov YAP Nəsimi rayon təşkilatı Gənclər Birliyinin sədri seçilib.

**Müşfiqə BAYRAMLI**

# “Qarayaxma kampaniyası aparanlar eyni mərkəzdən idarə olunurlar”



**“Xaricdə oturub ölkəmizə qarşı qarayaxma kampaniyası aparanlar eyni mərkəzdən idarə olunurlar. Mən həm ölkəmizdə, həm Ermənistanda, həm də Avropada olanların müsahibələrini, açıqlamalarını izləyirəm və baxıram. Onlar hamısı erməni maliyyəsi ilə fəaliyyət göstərir və eyni tapşırığı icra edirlər. Ötən gün onlardan biri heç bir əsas olmadan, heç bir fakta söykənmədən Azərbaycan Ordusu haqqında yalan, şər-böhtan xarakterli çıxışlar edirdi”.** Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası (YAP) İcra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzov deyib.

YAP İcra katibinin müavininin sözlərinə görə, bu insanlar çayxana söhbətini internet televiziyası vasitəsilə ictimaiyyətə çatdırırlar: **“Ümumiyyətlə, hər bir məsələ araşdırılmalıdır. Əgər o, ordu haqqında böhtan xarakterli fikirlər səsləndirirsə, deməli, o insanda, ümumiyyətlə, vətənpərvərlik hissi yoxdur. Bu insanlar ermənidən çox ermənidirlər. Eləcə də Leyla Yunus dəfələrlə Ermənistana qeyri-qanuni səfərlər edib. Onun Avropa ölkələrində bir neçə böyük mülkü, biznes şəbəkəsi və s. vardır. Leyla Yunus bunların hamısını erməni pulu ilə əldə edib. Gündə bir təşkilat yaradılır və adını gah “Azərbaycan Xalq Hərəkatı”, gah da “Milli şura” qoyurlar. Onların işləri-gücləri ancaq yalan danışmaqdan ibarətdir. Bilirsiniz ki, Fransada Paris Notr-Dam Kilsəsi yanıb. Düşündüm ki, onlar indi çıxıb deyəcəklər ki, bunu da Azərbaycan iqtidarı edib və yaxud da niyə Azərbaycan iqtidarı gəlib yanğını söndürməyib. Dünyanın harasında nə hadisə baş verirsə, həmin hadisələri Azərbaycan iqtidarının üzərinə atırlar. Xalqımız isə bütün bunları öz gözü ilə görür, başa düşür və onlara öz yerini göstərir”.**

# Türkiyə universitetləri ilə əməkdaşlıq Azərbaycanın inklüziv inkişafı barədə elmi ictimaiyyəti məlumatlandırmağa geniş imkanlar yaradır



Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA) Türkiyənin nüfuzlu ali məktəbləri ilə əməkdaşlığa xüsusi diqqət yetirir. Ankara Sosial Elmlər Universiteti ilə münasibətlərimiz dinamik inkişafdadır. Məhz bu əlaqələr sayəsində Azərbaycanın inklüziv inkişafı barədə Türkiyənin elmi ictimaiyyətinə ətraflı məlumat çatdıra bilirik.

Bunu AZƏRTAC-a açıqlamasında DİA-nın rektoru, akademik Urxan Ələkbərov deyib.

U.Ələkbərov bildirib ki, 2018-ci il Davos Forumunun hesabatında inklüziv inkişaf indeksinə görə Azərbaycan keçid iqtisadiyyatına malik ölkələr arasında 3-cü yerdə qərarlaşaraq, iqtisadi imkanları daha yüksək olan Avropa İttifaqı ölkələrinin çoxunu geridə qoyub. Eyni zamanda, inklüziv inkişafın idarə edilməsinə, yəni resurslardan səmərəli istifadəyə görə Azərbaycan dünyada birinci yerdədir. Bu, Prezident İlham Əliyevin tətbiq etdiyi yeni idarəçilik texnologiyalarının nəticəsidir.

Qeyd edək ki, U.Ələkbərov Ankara Sosial Elmlər Universitetində təşkil olunan elmi seminarda “Davamlı inklüziv inkişaf məqsədlərinin təmini üçün yeni idarəetmə texnologiyaları: Azərbaycanın təcrübəsi” mövzusunda məruzə ilə çıxış edib. Bundan başqa, Ankarada DİA ilə Türkiyənin Xaricdəki Türklər və Əqrəba İcmaları İdarəsi arasında əməkdaşlıq protokolu imzalanıb.

# Azərbaycana qarşı aparılan “qara piar” kampaniyası iflasa məhkumdur

## *Anti-Azərbaycan dairələr və “beşinci kolon” öz çirkin niyyətlərinə nail ola bilməyəcək*



***Cavanşir Paşazadə:***
*Azərbaycanı öz inkişaf yolundan və müstəqil siyasətindən döndərmək mümkün deyil*



***Sahibə Qafarova:***
*Anti-Azərbaycan dairələr Azərbaycana qarşı qarayaxma kampaniyası aparır, ölkəmizin uğurlarının üzərinə kölgə salmağa çalışırlar*

Azərbaycan dinamik inkişaf yolunda əmin addımlarla irəliləyir, həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər bütün sahələrdə möhtəşəm nailiyyətlərin qazanılmasını təmin edir. Bu gün müasir Azərbaycanın reallıqlarına nəzər salarkən bir sıra məqamları xüsusi vurğulamaq gərəkdir. Əvvəla qeyd edək ki, son 15 ildə Azərbaycanın iqtisadi cəhətdən güclü, özünü təmin edən, rəqabətədavamlı ölkəyə çevrilməsi məhz Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin real nəticəsidir. Digər tərəfdən, ölkəmizdə sosial sahədə həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər əhalinin rifahının daha da yüksəlməsinə səbəb olub. Bununla yanaşı, öz müstəqil siyasəti ilə dünyada, beynəlxalq münasibətlər sistemində böyük nüfuz qazanan Azərbaycanın dünyanın aparıcı güc mərkəzləri, işğalçı Ermənistan istisna olmaqla, qonşu dövlətlərlə qarşılıqlı maraqlara əsaslanan sıx əməkdaşlıq əlaqələri mövcuddur, ölkəmiz bir sıra regional formatların təşəbbüskarı və fəal iştirakçısıdır, mühüm transmilli enerji və nəqliyyat layihələrinin reallaşdırılması ölkəmizin strateji mövqelərini daha da gücləndirib.

Əlbəttə, mövcud vəziyyət Ermənistanı, erməni lobbisini, xaricdəki bir sıra anti-Azərbaycan dairələri ciddi şəkildə narahat edir. Azərbaycanın parlaq nailiyyətlərini qısqanclıq və narahatlıqla qarşılayan anti-Azərbaycan dairələr ölkəmizə qarşı qarayaxma kampaniyası aparırlar. Ekspertlər qeyd edirlər ki, xaricdəki anti-Azərbaycan dairələrinin, eləcə də daxildəki “beşinci kolon”un bu cəhdlərinin arxasında hansı maraqların durduğu Azərbaycan ictimaiyyətinə yaxşı məlumdur. Onlar bu cür vasitələrlə öz çirkin niyyətlərinə nail ola bilməyəcəklər.

Məsələyə münasibət bildirən Milli Məclisin deputatı Cavanşir Paşazadə deyib ki, bu gün Azərbaycan dünyanın nüfuzlu ölkələri sırasındadır. Onun sözlərinə görə, uğurlu daxili və xarici siyasət, ölkəmizin müəllifi və təşəbbüskarı olduğu transmilli layihələrin müvəffəqiyyətlə reallaşması Azərbaycanın beynəlxalq müstəvidə mövqelərini daha da gücləndirir: **“Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində ölkəmizin iqtisadi gücü artır, əhalinin sosial rifahı yüksəlir, ölkəmiz beynəlxalq arenada söz sahibinə çevrilir. Əldə olunan nailiyyətlərin başlıca səbəbi xalq-iqtidar birliyi, dövlət başçısının həyata keçirdiyi siyasətin milli maraqlarımıza xidmət etməsidir”.**

**“Məlumdur ki, son 15 ildə Azərbaycan iqtisadi cəhətdən güclü, özünü təmin edən, rəqabətədavamlı ölkəyə çevrilib. Ölkəmizin iqtisadi gücünün artması sosial müdafiə sisteminin gücləndirilməsində də özünü göstərib. Prezident İlham Əliyevin müvafiq Fərman və sərəncamları əsasında insanların sosial rifahının yüksəldilməsi məqsədi ilə davamlı tədbirlər həyata keçirilir. Bütün bunlar isə ölkəmizdə vətəndaş məmnunluğunu daha da artırır. Sadalananlar göstərir ki, Azərbaycan xalqı Prezident İlham Əliyevə böyük etimad göstərir, Onun siyasətini birmənalı olaraq dəstəkləyir. Fransanın nüfuzlu “Opinion Way” şirkətinin bu yaxınlarda keçirdiyi sorğu bunu bir daha təsdiq etdi”,** - deyə C.Paşazadə vurğulayıb.

Millət vəkili söyləyib ki, Azərbaycanın uğurları bəzi dairələri ciddi şəkildə narahat edir. Bu qüvvələrin zaman-zaman ölkəmizə qarşı “qara piar” kampaniyası apardığını deyən C.Paşazadənin fikrincə, burada məqsəd Azərbaycanın nüfuzuna zərbə vurmaqdır. O qeyd edib ki, bu kampaniyanı erməni lobbisi, xaricdəki bəzi anti-Azərbaycan qüvvələr təşkil edir, onların ölkəmizdəki əlaltıları bu prosesdə iştirak edirlər. **“Onların sifarişlərini yerinə yetirən “Trensparency International”, “Amnesty International” və digər bu kimi qurumlar ölkəmiz haqqında yalan, böhtan, dezinformasiya xarakterli məlumatlar yayır, Azərbaycanı beynəlxalq qınaq obyektinə çevirməyə, ölkə daxilində “beşinci kolon” vasitəsilə ictimai narazılıq formalaşdırmağa cəhd göstərirlər. Amma bunlar heç bir nəticə verməyəcək. Çünki indiyə qədər dəfələrlə belə cəhdlər olub və hər dəfə iflasa uğrayıb. Azərbaycan cəmiyyətini bu cür kampaniyalarla aldatmaq mümkün deyil və ictimaiyyət hər zaman bu ünsürlərin layiqli cavabını verəcək. Bütün hallarda Azərbaycanı öz inkişaf yolundan və müstəqil siyasətindən döndərmək mümkün deyil”,** - deyə deputat vurğulayıb.

Milli Məclisin deputatı Sahibə Qafarova deyib ki, yüksək nüfuza malik olan Azərbaycan beynəlxalq müstəvidə güclü, nüfuzlu dövlət kimi tanınır, ölkəmizin dostlarının, tərəfdaşlarının sayı davamlı olaraq artır: **“Azərbaycan dinamik inkişaf yolunda əmin addımlarla irəliləyir, qazanılan möhtəşəm uğurlar ölkəmiz qarşısında yeni perspektivlər açır. Bilirsiniz ki, ötən müddət ərzində dünyanın bir sıra regionlarında qanlı toqquşmalar, müharibələr, etiraz aksiyaları baş verib, beynəlxalq vəziyyət olduqca gərginləşib. Bütün bunlara baxmayaraq, Azərbaycan dinamik inkişafını uğurla və inamla davam etdirib, bütün sahələrdə parlaq nailiyyətlər əldə olunub, ölkəmizdə möhkəm əsaslara söykənən sabitlik, təhlükəsizlik qorunub saxlanılıb”.**

Azərbaycanda güclü xalq-iqtidar birliyinin mövcud olduğunu deyən Sahibə Qafarova bildirib ki, Azərbaycan xalqı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasəti tam dəstəkləyir, dövlətimizin başçısına sonsuz etimad və rəğbətini ifadə edir: **“Fransanın “Opinion Way” şirkətinin bu ilin mart ayında ölkəmizdə keçirdiyi rəy sorğusunun nəticələri bu reallığı bir daha təsdiqləyir. Sorğuda əks olunmuş məqamlar Azərbaycan xalqının Prezident İlham Əliyevin fəaliyyətini yüksək qiymətləndirdiyini, dövlət başçısının seçicilərin etimadını layiqincə doğrultduğunu göstərir”.**

**“Azərbaycan həmçinin milli maraqlara əsaslanan xarici siyasət kursunu müvəffəqiyyətlə davam etdirir, ölkəmizin beynəlxalq mövqeyi mütəmadi olaraq möhkəmlənir. Ölkəmizin liderliyi ilə regionda şaxələndirilmiş enerji və nəqliyyat dəhlizləri yaradılıb, yeni əməkdaşlıq platforması formalaşdırılıb, Azərbaycan bir sıra regional formatların təşəbbüskarı və fəal iştirakçısıdır. Şübhəsiz ki, bütün bu uğurlar Ermənistanı, erməni lobbisini, xaricdəki bir sıra anti-Azərbaycan dairələri ciddi şəkildə narahat edir. Ona görə də həmin dairələr Azərbaycana qarşı qarayaxma kampaniyası aparır, ölkəmizin uğurlarının üzərinə kölgə salmağa çalışırlar. Bu məqsədlə müxtəlif vasitələrdən istifadə edirlər. Əlbəttə, məqsəd Azərbaycana təzyiq göstərməkdir, amma bu cür vasitələrlə ölkəmizi inkişaf yolundan və milli maraqlara əsaslanan prinsipial, müstəqil siyasətindən döndərmək mümkün deyil. Azərbaycan bundan sonra da öz müstəqil siyasətini və dinamik inkişafını davam etdirəcək, beynəlxalq müstəvidə yeni nailiyyətlər qazanacaq”,** - deyə S.Qafarova əlavə edib.

**Nurlan QƏLƏNDƏRLİ**

# M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialında ənənəvi olaraq “Açıq qapı” günü keçirilib







Aprelin 20-də M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) Bakı filialında 2019-2020-ci tədris ili üçün bu ali məktəbə qəbulun şərtləri və qaydaları ilə tanışlıq məqsədilə “Açıq qapı” günü keçirilib. Tədbirə 700-dən çox şagird qatılıb.

AZƏRTAC xəbər verir ki, tədbiri açan Moskva Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinin ümumi topologiya və həndəsə kafedrasının müdiri, professor Yuri Sadovniçi “Açıq qapı” günündə iştirak edən professor-müəllim heyətini təqdim edib.

Bildirib ki, M.V.Lomonosov adına MDU-nun Bakı filialı Azərbaycan Prezidentinin Fərmanına müvafiq olaraq 2008-ci ildə yaradılıb. Bakı filialı əgər 2008-ci ildə üç fakültə - tətbiqi riyaziyyat, kimya və filologiya fakültələri ilə fəaliyyətə başlayıbsa, sonralar psixologiya, iqtisadiyyat və fizika fakültələri açılıb. Tədris 2012-ci ildən əsasən Bakı filialının Xocasəndə yerləşən mükəmməl kampusunda aparılır. Burada tələbələrin təhsil alması, eləcə də istirahəti üçün hər cür şərait yaradılıb. Məzunlara bütün dünyada tanınan M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin diplomu verilir. Bakalavr səviyyəsini bitirənlər, həmçinin burada magistratura təhsili ala bilərlər. Təhsilin magistratura səviyyəsi filialda yeni olan fizika fakültəsi istisna olmaqla, digər fakültələrin hamısında var. Fizika fakültəsində də magistratura perspektivi olacaq. On bir il ərzində Bakı filialı xeyli genişlənib. Ümumilikdə, 600-dən çox məzun bu müddət ərzində MDU-nun diplomunu alıb. Onlar Azərbaycanda və xaricdə müxtəlif nüfuzlu qurumlarda çalışırlar. Məzunlar Bakı filialında bilik qazandıqlarından çox razıdırlar.

Mart ayında Rusiyanın paytaxtında M.V.Lomonosov adına MDU-da “Universitetlər və bəşəriyyətin gələcəyi” mövzusunda keçirilmiş forumda rektor, akademik Viktor Sadovniçinin müasir dövrün çağırışlarından rəqəmsallaşma, ekologiya, beyin, kosmosla bağlı məsələləri qeyd etdiyini xatırladan professor Yuri Sadovniçi bu sahələrlə bağlı universitetdə yüksək səviyyədə tədris aparıldığını, Bakı filialının MDU-nun müvafiq fakültələri ilə sıx əməkdaşlıq etdiyini bildirib. Vurğulayıb ki, Bakı filialının komandası Moskvaya gedərək kosmik peykin buraxılması müsabiqəsində iştirak edib və layiqli yer tutub.

Diqqətə çatdırılıb ki, Bakı filialında tədris M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin tədris planları və proqramları əsasında müasir innovasiya texnologiyaları və tədris üsullarının tətbiqi ilə keçirilir.

Qəbul komissiyasının məsul katibi Denis İlyutko qəbul qaydaları haqqında ətraflı məlumat verib. Bildirib ki, Azərbaycanda buraxılış imtahanı ilə bağlı dəyişikliyə müvafiq olaraq MDU-nun Bakı filialı qəbulla bağlı bəzi tələblərdə dəyişiklik edib. Qəbulla bağlı bütün məlumatlar M.V.Lomonosov adına MDU-nun Bakı filialının http://msu.az/ saytında yerləşdirilib. Əgər abituriyentin, ümumiyyətlə, M.V.Lomonosov adına MDU ilə bağlı müəyyən sualları varsa, onların cavabını M.V.Lomonosov adına MDU-nun Mərkəzi Qəbul Komissiyasının http://cpk.msu.ru/ saytından öyrənə bilər.

MDU-nun Bakı filialında həm dövlət sifarişi, həm də ödəniş əsasında təhsil almaq mümkündür. 2019-2020-ci tədris ilində qəbul planında filologiya fakültəsində cəmi 33 - dövlət sifarişi əsasında 30 yer (o cümlədən “Rus dili və ədəbiyyatı” tədris proqramı üzrə 10, “Müasir Qərbi Avropa dilləri və ədəbiyyatı” tədris proqramı, ingilis və italyan dilləri üzrə 20) və 3 ödənişli yer (“Rus dili və ədəbiyyatı” üzrə 1, “Müasir Qərbi Avropa dilləri və ədəbiyyatı”, ingilis və italyan dilləri üzrə 2) nəzərdə tutulub. Tətbiqi riyaziyyat fakültəsində 26 yer (25-i dövlət sifarişi, 1-i ödənişli), kimya fakültəsində 27 yer (25-i dövlət sifarişli və 2-si ödənişli), psixologiya fakültəsində 30 yer (25-i dövlət sifarişli, 5-i ödənişli), fizika fakültəsində 27 yer (25-i dövlət sifarişli və 2-si ödənişli) planlaşdırılıb. İqtisadiyyat fakültəsində cəmi 27 yer - dövlət sifarişli 25 yer (iqtisadiyyat üzrə 13, menecment üzrə 12) və 2 ödənişli yer (1 iqtisadiyyat, 1 menecment) ayrılıb. Qəbul imtahanları iyulun 5-dən 11-dək keçiriləcək. MDU-nun Bakı filialının saytında imtahan qrafiki təqdim edilib.

Magistraturaya 5 fakültə üzrə qəbul aparılacaq. Filologiya fakültəsi üzrə cəmi 13 yer - dövlət sifarişi əsasında 10 (o cümlədən rus dili üzrə 3, ingilis dili üzrə 4, italyan dili üzrə 3), ödənişli 3 yer (rus dili, ingilis dili və italyan dilinin hər biri üzrə 1 yer) ayrılıb. Tətbiqi riyaziyyat fakültəsində 6 yer (5-i dövlət sifarişli, 1-ödənişli), kimya fakültəsində cəmi 7 yer - 6-sı dövlət sifarişli (o cümlədən üzvi kimya, fiziki kimya və neft kimyası təhsil proqramları üzrə hər birinə 2 yer), 1-i ödənişli (qeyd olunan təhsil proqramlarından birinə), psixologiya fakültəsində 14 yer - 12-si dövlət sifarişli (o cümlədən psixoloji inkişaf proqramı üzrə 6, “Koqnitiv və emosional pozulma proseslərində klinik-psixoloji reabilitasiya” proqramı üzrə 6 yer ) və 2-si ödənişli (qeyd olunan müvafiq proqramların hər birinə 1 yer) nəzərdə tutulur. İqtisadiyyat fakültəsində cəmi 12 yer ayrılıb. Bu yerlərdən 10-u dövlət sifarişli (“Beynəlxalq biznes” proqramı üzrə), 2-si ödənişlidir. Magistraturaya imtahanlar iyunun 14-də və 17-də keçiriləcək.

Azərbaycan Respublikasında büdcə hesabına ali təhsil almış vətəndaşlar istisna edilməklə, respublika vətəndaşları üçün təhsil pulsuzdur. Həmçinin əvvəllər pulsuz təhsil almamış və Azərbaycanda daimi yaşayan əcnəbilər üçün təhsil ödənişsizdir.

Filiala qəbul imtahanına buraxılmaq üçün Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən keçirilən (mayın 12-si və ya 19-u) imtahanda iştirak etmək lazımdır. Bu zaman istənilən ixtisas qrupu üzrə azı 150 bal toplamaq tələb olunur.

Ərizələri yalnız bir fakültəyə vermək olar. Lakin fakültədə bir neçə tədris proqramı varsa, bütün istiqamətlər üzrə ərizə vermək mümkündür. Eyni zamanda, prioriteti göstərmək lazımdır. Qəbul barədə ərizə elektron formada, elektron rəqəmsal imza - FİN kod əsasında verilə bilər. Ərizə forması http://msu.az/ saytında və ya DİM-in saytında (http://dim.gov.az/) doldurula bilər. Bakalavrlar üçün qeydiyyat mayın 29-dan iyunun 28-dək, magistratura üçün qeydiyyat mayın 7-dən iyunun 10-dək aparılır. Sualı olanlar info@msu.az ünvanına yaza bilərlər.

Dövlət büdcəsi hesabına artıq təhsil almış Azərbaycan vətəndaşları, əvvəllər pulsuz təhsil almış və Azərbaycanda daimi yaşayan əcnəbilər MDU-nun Bakı filialında ödənişli əsasla təhsil ala bilərlər.

MDU-nun Bakı filialı hər fakültə üzrə ödənişsiz kurslar təşkil edir. Kurslara əvvəlcədən yazılmaq lazımdır.

MDU-nun fizika fakültəsinin ümumi fizika kafedrasının professoru, fizika-riyaziyyat elmləri doktoru, fizika fakültəsinin elmi-tədris işinin əlaqələndirilməsinə məsul Aleksandr Saletski diqqətə çatdırıb ki, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin yalnız Bakı filialında fizika fakültəsi fəaliyyət göstərir. Fakültədə fizika fənni, həmçinin riyaziyyat yüksək səviyyədə tədris olunur. Qısa müddət ərzində fakültədə 7 laboratoriya praktikumu yaradılıb. Hazırda yüksək səviyyədə elmi laboratoriya təşkil edilir.

Fizika-riyaziyyat elmləri namizədi, MDU-nun mexanika-riyaziyyat elmi-tədris işinin əlaqələndirilməsinə məsul Yevgeni Mıçka tətbiqi riyaziyyat fakültəsi haqqında məlumat verib. Qeyd edib ki, fakültədə oxumaq çətindir, lakin məzunların iş problemi olmur. Məzunlar müxtəlif dövlət qurumlarına, həmçinin “British Petroleum”, SOCAR, “Azercell”, “Azərkosmos” və digər nüfuzlu şirkətlərə işə düzəlir, maliyyə, bank sahələrində, sığorta şirkətlərində işləyirlər. Onlar nəinki Azərbaycanda, xaricdə də işləyə bilirlər. Fakültədə I və II kurslarda tələbələr fundamental fənləri öyrənirlər. Sonra tələbə elmi rəhbər seçməlidir. Üçüncü kursda tələbə kurs işi, dördüncü kursun sonunda isə diplom işi yazır və müdafiə edir. Beləliklə, II kursdan sonra tələbələr elmi fəaliyyətə cəlb olunur. Fakültənin ən yaxşı tələbələri müxtəlif müsabiqələrdə, konfranslarda iştirak edirlər. Magistraturadan sonra Moskvada aspirantura təhsili almaq imkanı da var. MDU-nun Bakı filialında riyaziyyat fənni üzrə bazar günü məktəbi fəaliyyət göstərir. Bazar günü məktəblərinə gələnlərin 50 faizi sonra filialda təhsil alır.

“Açıq qapı” günündə MDU-nun filologiya fakültəsinin rus ədəbiyyatı tarixi kafedrasında filologiya elmləri namizədi Andrey Fedotov da çıxış edib. Bildirib ki, fakültədə universitet üzrə tədris edilən fənlərlə yanaşı, linqvistik, kulturoloji istiqamətlərdə də fənlər öyrədilir. Tələbələrin müasir humanitar biliklərin ən qabaqcıl trendləri ilə tanış olmaq imkanı var. Tələbələrin dil biliklərini möhkəmləndirmək üçün onlara xaricdə staj keçmək imkanı yaradılır. Filialın məzunlarına müxtəlif sahələrdə tələbat çoxdur; onlar səfirliklərdə, şirkətlərdə tərcüməçi işləyə, mətbuat xidmətində fəaliyyət göstərə, tədris edə bilərlər və s.

Kimya elmləri doktoru, professor Aleksey Kopılov kimya fakültəsi haqqında ətraflı məlumat verib, filialda müvafiq sahə üzrə tədris üçün ən yüksək standartlara cavab verən şəraitin yaradıldığını bildirib. Kimyanın sənaye, tibb, texnologiya, məişət və digər sahələrdə mühüm rolundan danışan professor Aleksey Kopılov bu elmi öyrənməyin vacibliyini vurğulayıb. O, fakültədə Moskvadan beynəlxalq dərəcəli müəllimlərin gəlib mühazirə oxuduğunu, seminar, praktikum apardığını bildirib. Qeyd edib ki, fakültədə ən müasir avadanlıqla təchiz edilmiş 12 laboratoriya, habelə ən müasir dərs otaqları var. Təsadüfi deyil ki, 47-ci Beynəlxalq Kimya Olimpiadası M.V.Lomonosov adına MDU-nun Bakı filialında keçirilib.

MDU-nun psixologiya fakültəsinin elmi-tədris işinin əlaqələndirilməsinə məsul Leonid Babanin, ümumiyyətlə, MDU-nun Bakı filialında təhsil almağın maraqlı olmasından danışıb. Qeyd edib ki, bu il 10 yaşı tamam olan psixologiya fakültəsinin məzunları iş tapmaqda əsla çətinlik çəkmir. Magistraturadan sonra Moskvada aspirantura təhsili də almaq mümkündür. Qəbul zamanı MDU-nun proqramı əsasında biologiya fənnindən imtahan vermək çətinlik yaratsa da, Bakı filialında biologiya üzrə bazar günü məktəbi fəaliyyət göstərir ki, bu, abituriyentlərin biliklərini artırmağa imkan yaradır.

İqtisad elmləri namizədi, iqtisad fakültəsinin tədris-elm işinin əlaqələndirilməsinə məsul Ceyhun Hüseynov diqqətə çatdırıb ki, fakültə 2012-ci ildə yaradılıb. Bu il fakültənin bakalavr səviyyəsi üzrə dördüncü, magistr üzrə ikinci buraxılışı olacaq. İqtisadiyyat fakültəsinin populyarlaşdığını deyən Ceyhun Hüseynov ildən-ilə müsabiqənin də böyük olduğunu bildirib. O, iqtisad elmlərinə tələbatdan danışıb, fakültədə tədris edilən proqramların fərqli və çox yüksək səviyyədə olduğunu söyləyib, bakalavr və magistratura təhsili haqqında ətraflı məlumat verib.

Çıxış edənlər tədbir iştirakçılarının çoxsaylı suallarını cavablandırıblar.

Sonra tədbir iştirakçılarına xüsusi avtobuslarda Xocasəndə MDU-nun Bakı filialının kampusuna getmək imkanı yaradılıb.

Beləliklə, tədbir iştirakçıları bu ali təhsil müəssisəsinin filologiya, tətbiqi riyaziyyat, kimya, psixologiya, iqtisadiyyat və fizika fakültələrində bakalavr və magistr hazırlığı ilə bağlı hərtərəfli məlumat əldə ediblər.

# "Israel Hayom" qəzeti: "Azərbaycan müqəddəs Odlar Yurdudur"







***İsraildə çıxan nüfuzlu "Israel Hayom" qəzetində "Azərbaycan müqəddəs Odlar Yurdudur" sərlövhəli məqalə dərc edilib.***

***AZƏRTAC həmin məqaləni təqdim edir.***

Gözəl Bakı şəhərinin küçələrinə ekskursiya sizi Qafqazın guya Qərbin şərq hissəsi olması barədə fikirlərdən yayınmağa məcbur edəcək. Gələn həftə Azərbaycan paytaxtında Formula 1 yürüşləri keçiriləcək. Şəhər bu mühüm beynəlxalq idman tədbirinə hazırlaşır. Bakıda olduğumuz bir neçə saat müddətində burada müasir memarlıq nümunələri olan gözəl binaları, böyük sarayları, işıqlandırılmış geniş prospektləri gördük, bir də bunu yəqin etdik ki, Bakıdakı kafe və barlarda qiymətlər Azərbaycana səfər edən hər bir israilli turist üçün münasibdir.

Biz, israilli jurnalistlər buraya Azərbaycanın son 30 ildə üzləşdiyi ərazi münaqişəsinin nəticələrini öz gözlərimizlə görmək, vəziyyətlə yaxından tanış olmaq və onu anlamaq üçün gəlmişdik. Adının mənası "Odlar Diyarı" olan, işğaldan əziyyət çəkən bu ölkənin həqiqətən çox mürəkkəb vəziyyətdə olmasını yəqin etdik.

## BAKI: HARMONİYADAN MÜNAQİŞƏNİN MƏRKƏZİNƏ DOĞRU

Biz möhtəşəm Heydər məscidinə gəldik. Məscidin 4 minarəsinin hündürlüyü 95 metrdir. Bu memarlıq möcüzəsinin üstünə günəş işığı düşəndə Kainatda həyatın fövqündə dayanan dinin qüvvəsini duymamaq çətindir. Məscid Azərbaycan xalqının Ümummilli Lideri, Azərbaycanın əfsanəvi Prezidenti Heydər Əliyevin şərəfinə belə adlanıb. Üç mərtəbədən ibarət olan məsciddə eyni zamanda 3500 nəfərin, o cümlədən qadınların da ibadət etmələri üçün şərait yaradılıb. Məscidə daxil olan kimi dərhal diqqəti cəlb edən böyük xalçanın sahəsi 900 kvadratmetrdir. Lakin bizi ən çox heyrətləndirən bu xalça deyil, dünyanın heç bir yerində tayı-bərabəri olmayan bu gözəl ölkəyə xas olan nadir dini harmoniya oldu.

Məscidin girəcəyində bizi iki imam - Hafiz Abbasov (şiə) və Axund Rauf (sünni), habelə digər dini konfessiyaların yüksəkrütbəli nümayəndələri, o cümlədən dağ yəhudilərinin rəhbəri və Alban-katolik kilsəsinin başçısı qarşıladı. Azərbaycanlılar haqlı olaraq çox fəxr edirlər ki, onların ölkəsi İslam aləmində dinin dövlətdən tamamilə ayrıldığı ilk dünyəvi parlament dövlətidir.

Bütün dinlərin nümayəndələri arasında bu cür harmoniya mövcuddur (ölkədə rəsmi qeydiyyata alınmış 955 dini qurum fəaliyyət göstərir). Bu, həm qəribə, həm də tamamilə məntiqəuyğundur. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin rəhbəri Rəvan Həsənov deyir: **"Burada harmonik dini və milli tolerantlığın səbəbi ondan ibarətdir ki, Azərbaycan həmişə nadir multikulturalizm məkanı olub. Müxtəlif mədəniyyətlərin və dinlərin qovuşduğu coğrafi məkanda yerləşən Azərbaycanda bir sıra millətlərin və dinlərin nümayəndələri yaşayır, multikulturalizm siyasəti isə rəsmi dövlət siyasəti səviyyəsinə çatdırılıb. Azərbaycan Prezidenti İlham Əliyev bütün dinlərin nümayəndələrinə eyni münasibət bəsləyir. Onun yürütdüyü müdrik siyasət xalqlar və konfessiyalar arasında birliyə, sülhə və əmin-amanlığa şərait yaradır".**

Biz Bakını, onun işıqlı gecələrini arxada qoyub, Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərinin sərhədinə - "Odlar Yurdu"nun ürəyində qanlı yaraya çevrilmiş, onu fiziki baxımdan iki hissəyə bölən əraziyə üz tutduq.

Yeknəsəq mənzərə, ucsuz-bucaqsız qara torpaq, bir neçə kənd, yol boyunca stansiyalar, yolların kənarında otlayan ev heyvanları və hər şeydən əvvəl uzaqda görünən, sanki qorxu saçan dağlar...

1988-ci ildə hələ Sovet İttifaqı dağılana qədər yaranmış hərc-mərclikdə Cənubi Qafqaz ərazisində erməni və azərbaycanlı əhali arasında münaqişə yarandı. Danılmaz tarixi faktdır ki, 250.000 azərbaycanlı Ermənistandan qovuldu. 1992-ci ilin fevralında erməni silahlı dəstələri Azərbaycanın Xocalı şəhərində qanlı qırğın törətdilər və bir gecədə bu şəhərin 613 dinc sakinini məhv etdilər. Ermənistan tərəfindən törədilmiş etnik təmizləmə nəticəsində Dağlıq Qarabağdan və ona bitişik yeddi rayondan 750.000 azərbaycanlı öz doğma yurdundan qovuldu.

## TƏRTƏR RAYONU: SƏRHƏDDƏ QÜSSƏLİ ƏHVAL-RUHİYYƏ

Azərbaycanın işğal edilmiş əraziləri ilə sərhədə dörd kilometr qalmış bizi Tərtər rayonunun İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov qarşıladı.

M.Məmmədov bildirdi ki, hərbi əməliyyatlar dövründə hər tərəfdən atılan raketlər Tərtərə düşürdü. Bu sözləri eşidəndə biz özümüzü İsraildə olduğu kimi hiss etdik.

Rayon rəhbəri bizi ermənilərin İrandan və Türkiyədən Azərbaycan ərazisinə köçürülməsinin 150 illiyi münasibətilə özlərinin ucaltdığı "Marağa" abidəsinin yanına apardı. Rus-İran müharibəsində qalib gəlmiş Rusiya həmin müharibədən sonra erməniləri kütləvi şəkildə Azərbaycan ərazisinə köçürmüşdü. Ermənilərin çox hissəsi Azərbaycanın bu qədim bölgəsinin dağlıq hissəsində məskunlaşdırıldı.

Bu hadisələr bir sıra təkzibolunmaz faktlarla dönə-dönə təsdiqlənir. Belə faktlardan biri 1978-ci ildə Qarabağın Ağdərə rayonunun Marağa kəndində ermənilərin İrandan bu kəndə köçürülməsinin 150 illiyi şərəfinə qoyulmuş abidədir. Ermənilər buradan gedəndə bu tarixi abidəni dağıdıblar.

Tarixi ədalət hissi azərbaycanlılar üçün güc mənbəyidir. Onlar Ermənistanla münaqişə barədə ürəkağrısı ilə danışırlar. Bizim səfərimiz zamanı onlar öz ölkəsinin tarixi, o cümlədən Makedoniyalı İsgəndərin bu regiona yürüşü barədə bizə məlumat verdilər. Onların söhbətlərindən öyrəndik ki, Ermənistan tərəfindən işğal edilmiş Dağlıq Qarabağ ərazisində Tərtər çayı üzərində tikilmiş Sərsəng su anbarı 560 min kubmetrə qədər su tutur. Bu, regionda ən böyük su anbarıdır. Sovet dövründə bu resurslar kənd təsərrüfatı təyinatlı 130 min hektara yaxın torpağın suvarılması üçün ayrılırdı. 1992-1994-cü illər müharibəsi dövründə su anbarına sahib olmaq uğrunda qanlı döyüşlər nəticəsində Ermənistan bu ərazini işğal etdi. Hazırda Ermənistan bu su anbarına nəzarət edir və azərbaycanlı fermerlərin, onların kənd təsərrüfatı təyinatlı torpaqlarının su təchizatını məhdudlaşdırır. İşğal nəticəsində burada kənd təsərrüfatı kəskin şəkildə azalıb. Azərbaycan hökuməti böhranın qarşısını almaq üçün bu regionda kənd təsərrüfatını iqtisadi cəhətdən stimullaşdırır, bu sahənin inkişafı üçün zəruri subsidiyalar ayırır. Azərbaycanlı fermerlər Sərsəng su anbarından alınmalı suyun əvəzinə öz torpaqlarını artezian suyu ilə suvarırlar. Bu isə heç də asan başa gəlmir.

Münaqişənin Azərbaycana vurduğu iqtisadi zərbə göz qabağındadır. Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovla söhbətdən anladım ki, ölkənin neft-qaz sahəsindən əldə etdiyi mənfəət sayəsində ucuz kənd təsərrüfatı məhsulları istehsalı üçün böyük məbləğdə sərmayələr qoyulur. Nazir, ilk növbədə, su ehtiyatlarının idarə edilməsi sahəsində İsrailin texnoloji imkanlarına heyran olduğunu bildirdi.

Tərtər rayonunun başçısından soruşdum ki, gənclər bu aqrar periferiyanı tərk edib böyük şəhərlərə köçürlərmi? Müstəqim Məmmədov dedi: **"Burada sizin Bakıda gördüklərinizin hamısı, hətta ondan da artığı var".**

Həsənqaya kəndinə gedirik. 2016-cı ildə dördgünlük aprel müharibəsi ərəfəsində erməni silahlı dəstələri tərəfindən artilleriya atəşləri nəticəsində bu kəndin sakini, 16 yaşlı Turanə Həsənova həlak olub. Hələ bütün həyatı irəlidə olan gənc qız erməni işğalçılarının törətdiyi vəhşiliyin qurbanı olub. Turanənin valideynləri ilə görüşdük. Onlar bu barədə ürəkağrısı ilə danışdıqca, gözlərində kədər duyulur. Turanənin qardaşını göstərdilər. 32 yaşlı Azad Həsənov qoşunların təmas xəttində piyadalar əleyhinə minaya düşüb, onun ayağını amputasiya etməli olublar. Ətürpədici xarabalıqları görəndə öz doğma torpaqlarından qovulmuş insanların keçirdiyi hissləri başa düşürük.

## LƏLƏTƏPƏ: İKİ DAĞ ARASINDA

**"2016-cı il aprelin əvvəlində ermənilər, həmişə olduğu kimi, gecə vaxtı cəbhə xəttində növbəti provokasiya törətdilər, lakin bu dəfə biz onlara daha artıq qüvvə ilə və sərt cavab verməyi qərara aldıq",** - bu sözləri mayor Tahir dedi. İnamla gülümsəyən mayor sözünə davam etdi: **"Bizim azad etdiyimiz Lələtəpə yüksəkliyi Horadiz yaşayış məntəqəsini, bu şəhərin ətrafındakı ərazini, daha sonra Füzuli istiqamətini müşahidə etmək, atəş nəzarəti altında saxlamaq imkanını təmin edir, mühüm dəmiryol qovşağı olan Horadizin düşmən tərəfindən atəşə tutulması təhlükəsini aradan qaldırır, düşməni öz qüvvələrini gizli şəkildə cəmləşdirmək və bu istiqamətdə irəliləmək imkanından məhrum edir".**

Lələtəpə əməliyyatının azərbaycanlılar üçün əhəmiyyəti bütün israillilər üçün qürur mənbəyi olan Hermon dağının İsrail tərəfindən tutulması uğrunda döyüşlə müqayisə edilə bilər.

Lələtəpədə əsgərlərlə bərabər əyləşib təzə dəmlənmiş tünd Azərbaycan çayını dadlı mürəbbə ilə içirik. Bu, elə bir mərasimdir ki, Azərbaycanda heç bir ev sahibi sizi onsuz buraxmaz. Əyləşib bu vadiyə baxdıqca başa düşürəm ki, Lələtəpə yüksəkliyi geniş bir ərazini nəzarətdə saxlamağa imkan verir. Labirintə oxşayan relyef, təbii maneələr və sərt süni döngələr hətta təzəcə yapon cipi ilə də bu dar yolla dağa qalxmağı çətinləşdirir. 1993-cü ildə ermənilər bu yüksəkliyi ələ keçirmiş, orada az qala alınmaz bir mövqe yaratmışdılar.

Amma azərbaycanlı əsgər və zabitlər bu möhkəmlədilmiş kompleksi 20 dəqiqə ərzində azad etdilər və buna görə haqlı olaraq qürur hissi keçirirlər. Ətrafdakı ərazinin topoqrafiyası belə düşünməyə əsas verir ki, həmin əsgər və zabitlər öz ölkələrinin superqəhrəmanları olublar. İsrail Müdafiə Ordusunun nümayəndəsi kimi mən də Azərbaycan əsgərlərinin rəşadətinə heyran oldum. O vuruşmanın necə baş verdiyini, azərbaycanlı superqəhrəman əsgərlərin ermənilərin möhkəmlədilmiş postunu ələ keçirməyə necə nail olduqlarını anlamağa çalışıram. Xeyli sonra öyrəndim ki, xarici KİV-lərin yazdıqlarına görə, azərbaycanlı cəsur əsgərlərin bu döyüşdə göstərdiyi qəhrəmanlığa İsrail hərbi texnologiyası kömək edib, amma heç kəs bu barədə danışmağı xoşlamır.

## AŞAĞI ƏBDÜRRƏHMANLI

Bu kənddə Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) prezidenti, Azərbaycan Mətbuat Şurası sədrinin müavini Umud Mirzəyevlə görüşdük. O, bizi özünün doğulduğu, sonradan ermənilər tərəfindən dağıdılmış kəndə aparmağı təklif etdi. Çöhrəsindən nur yağan bu yaşlı insan danışdıqca kövrəlirdi: **"Burada mənim məktəbim olub, burada mənim evim olub, həyat yoldaşımın valideynlərinin evi burada olub, uşaq vaxtı burada futbol oynayırdıq".** Yamyaşıl təpəliyə çatanda isə sözünə davam etdi: **"Burada atamın vəsiyyətini yerinə yetirmişəm. O, öləndə öz kəndimizdə, öz torpağımızda dəfn olunmasını vəsiyyət etdi. Mənə dedi: "Oğlum, Azərbaycan torpaqlarının azad edilməsi prosesi başlanıb və inanıram ki, yaxın gələcəkdə torpaqlarımızın hamısı azad ediləcək, məni öz kəndimizdə dəfn et".**

Viran edilmiş kəndi gəzirik, dağıdılmış evləri, məktəbləri, uçurulmuş, eybəcər hala salınmış məzar daşlarını gördük. Bu, dəhşətdir: Erməni snayperlər hətta ölülərə də atəş açırlar. Bizi müşayiət edən əsgərlər Umuda təlimat keçirlər, əyilməsini məsləhət görürlər. Lakin emosional Umud əyilmir və məzarın qarşısında dayanaraq, öz torpağına, ulu babasının, babasının və atasının torpağına, öz ölkəsinə və Azərbaycan xalqına sadiq qalacağını bildirir.

## COCUQ MƏRCANLI

**"Mən qəhrəman deyiləm, mən burada ona görə qalmışam ki, bu, mənim torpağımdır. 1994-cü ildən 2016-cı ilə qədər erməni silahlı dəstələri demək olar ki, hər gün bizim kəndi atəşə tuturdu. Sakinlər başa düşürdülər ki, bu, döyüş patronlarından istifadə etməklə aparılan psixoloji müharibədir. Lələtəpə postundakı ermənilər bu məşhur Cocuq Mərcanlı kəndini öz əsgərləri üçün canlı poliqona çevirmişdilər",** - Oqtay adlı həmsöhbətim təvazökar olsa da, burada əsl qəhrəmandır.

Yaranmış mürəkkəb şəraitdə kəndin 1000 nəfərdən çox sakini müvəqqəti olaraq evlərini tərk edib daha təhlükəsiz yerlərə köçdülər. Təxliyə olunmaqdan imtina etmiş sonuncu sakin bizim qəhrəman Oqtay olub. O, 22 il ərzində həyatı üçün daimi təhlükəyə baxmayaraq, öz torpağında qalıb işləyib, uşaqlarını tərbiyə edib, fermer təsərrüfatı yaradıb. Onun uşaqları uzaq bir kənddəki məktəbə gediblər. Mən maraqlandım: Oqtayın uşaqlarının dostları Tanrının unutduğu bu kimsəsiz kəndə, bu uşaqlarla oynamağa gəlirdilərmi? Oqtay istehza ilə gülümsədi: **"Uşaq - uşaqdır, əlbəttə gəlirdilər".** Lələtəpə yaxınlığındakı döyüşdə erməni işğalçı qüvvələri tam məğlubiyyətə uğrayandan sonra Azərbaycan hökuməti, Azərbaycan dövləti bu kəndi bərpa edib. Nəticədə gözəl, mən deyərdim ki, fantastik bir kənd əmələ gəlib.

Bu kənd keçmişi illüstrasiya edən çox yaxşı bir nümunədir. Yerli məktəbin divarlarını döyüş əməliyyatları zamanı bu kəndin azad edilməsi uğrunda canlarından keçmiş milli qəhrəmanların fotoşəkilləri bəzəyir. Mən burada başa düşdüm ki, bizim - israilli jurnalistlərin bu kəndi görməyimiz Azərbaycan xalqından ötrü nə üçün bu qədər vacib imiş. Ona görə ki, bu gün bu insanların tarixini sovet dövrünün külündən baş qaldırmış və öz gələcəyini bərpa edən simurq quşu kimi canlı hekayətdən əhəmiyyətli heç nə yoxdur.

Bütün böyük Azərbaycanda yaşayan qaçqınların və məcburi köçkünlərin başına gələnləri İsrail-Fələstin münaqişəsi ilə müqayisə etsək, dünyamızın riyakarlığını hiss etməmək çətindir. Fələstinlilər öz ulu nənələrinin və ulu babalarının evlərinin paslı açarlarını əldən buraxmır, dünya mətbuatı bu barədə gen-bol yazır, azərbaycanlılar isə çox şey istəmir - təkcə dünyadan diqqət umurlar. Onlar istəyirlər ki, Azərbaycan ərazilərinin işğal edilməsi, Dağlıq Qarabağdan və Azərbaycanın bu bölgəyə bitişik 7 rayonundan olan bir milyon qaçqının və məcburi köçkünün problemləri barədə dünyada bilsinlər.

Daha vacibi, azərbaycanlılar istəyirlər ki, dünyada həm Azərbaycan xalqının üzləşdiyi fəlakətə, həm də işğaldan azad olunmuş ərazilərin bərpasının dövlət tərəfindən təmin edilməsinə, xüsusən xalqlar arasında nifrət hissini kəskinləşdirmədən millətlərarası münaqişəni həll etmək cəhdinə dünyada diqqət yetirsinlər.

Azərbaycanlı dostlarımız qürurla danışırlar ki, ermənilər tərəfindən aparılmış etnik təmizləməyə, Ermənistandakı və Dağlıq Qarabağdakı bütün məscidlərin dağıdılmasına baxmayaraq, azərbaycanlılar bu ölkədə yaşayan erməniləri nəinki qovmayıblar, hətta İçərişəhərin yaxınlığında, Bakının lap mərkəzində yerləşən erməni kilsəsini bərpa və təmir ediblər. Biz şəxsən bunun şahidi olduq.

Cocuq Mərcanlı məktəbinin direktoru Zamin Həziyev dedi: **"Mənim torpağımı işğal etmiş erməni əsgərinə nifrət edirəm, lakin mənim qəlbimdə bütövlükdə erməni xalqına qarşı nifrət hissi yoxdur".**

Görəsən bütün bunların axırı nə olacaq? Biz səfərdə olduğumuz müddətdə Moskvada Azərbaycan və Ermənistan XİN rəhbərlərinin görüşü olub. Belə məlum olur ki, azərbaycanlılar münaqişənin davam etməsini istəmirlər.

İsrail-Azərbaycan münasibətləri üzrə ekspert Arye Qut Azərbaycanın mövqeyini belə izah edir ki, diplomatlar söz oyunu oynayırlar. O deyib: **"Azərbaycan ərazisinin 20 faizdən çoxunun erməni işğalı altında olması danılmaz faktdır. Bu, qeyri-qanuni işğaldır. BMT Təhlükəsizlik Şurası həmin ərazilərin Ermənistan tərəfindən işğal olunmasını və nəzarətdə saxlanmasını pisləyən dörd qətnamə qəbul edib.**

**Beynəlxalq təşkilatlar Ermənistan Respublikasını öz qoşunlarını Dağlıq Qarabağdan və Azərbaycanın bu bölgəyə bitişik 7 rayonundan çıxarmağa çağırırlar. Buna baxmayaraq, erməni qüvvələri Azərbaycan ərazilərinin işğalını, atəş açmağı və atəşkəs rejimini pozmağı davam etdirirlər.**

**Lakin Bakı bu məsələni sülh yolu ilə həll etməyə çalışır. Hamı çox gözəl başa düşür ki, dilənçi vəziyyətində olan yoxsul Ermənistan üçüncü ölkənin dəstəyi olmadan Azərbaycan ərazilərinin 20 faizini işğal edə bilməzdi. Azərbaycanın səbri tükənib. Rəsmi Bakı dəfələrlə bəyan edib və Ermənistana xəbərdarlıq edib ki, Azərbaycan mövcud status-kvo ilə heç vaxt razılaşmayacaq. Ermənistanın hərbi və siyasi rəhbərliyinin sərsəm bəyanatları isə göstərir ki, onlar narahatdırlar, qorxu və vahimə içindədirlər".**

Sərhəd zonasında yerləşən Tərtər rayonundan olan gənc məktəblinin dedikləri də israilli ekspertin bu sözlərini təsdiq edir. Mən həmin məktəbli ilə görüşərkən o, kamal attestatı almaq üçün imtahan verməli idi. Bu münaqişənin nə ilə başa çatacağı barədə onun fikrini soruşanda həmin şagird belə cavab verdi: **"Biz başqasının torpaqlarına göz dikməmişik. Ermənistanın işğal etdiyi torpaqlar bizim torpaqlardır və biz bu torpaqlardan heç vaxt imtina etməyəcəyik. Lazım gəlsə, biz vuruşacağıq və sonda ermənilər təslim olacaq və ya çoxlu qan töküləcək".**

## BAKI İLƏ VİDALAŞMA: DEMOKRATİYA YOLUNDA

Azərbaycanlılar regionda yaranmış geosiyasi mənzərəni çox yaxşı dərk edir və başa düşürlər. Biz səfərdə olduğumuz müddətdə İsrailin Azərbaycanı dəstəkləməsinə görə səmimi minnətdarlıq sözlərini eşitdik. Bunu Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovla görüş zamanı da eşitdik. O dedi: **"Azərbaycan İsraili özünə dost ölkə və strateji tərəfdaş hesab edir. Bu günlərdə İsraildə növbədənkənar parlament seçkiləri keçirildi. Fəaliyyətdə olan baş nazir Binyamin Netanyahu beşinci dəfə seçkilərdə qalib gəldi və hökumətə başçılıq etdi. Biz İsrail xalqının seçiminə böyük hörmətlə yanaşırıq. Netanyahu 1997-ci ildə İsrailin Azərbaycana səfər etmiş ilk yüksəkvəzifəli məmuru olub və Heydər Əliyev ilə görüşüb.**

**İsrailin baş nazirinin bu tarixi səfərindən sonra ölkələrimiz arasında xüsusi strateji münasibətlər yaranmağa başlayıb. 2016-cı ilin dekabr ayında Binyamin Netanyahu Azərbaycana ilk rəsmi səfər edib və bununla Bakının və Təl-Əvivin daha da yaxınlaşması kursunu nümayiş etdirib. Biz İsrail hökumətinin başçısına böyük hörmət və ehtiramla yanaşırıq. Binyamin Netanyahunun ölkəmizə və bizim Prezidentə necə səmimi insani hörmət bəslədiyini bilirik.**

**Bu gün Azərbaycan ilə İsrail arasında münasibətlər bütün istiqamətlərdə uğurla inkişaf edir. Onu da qeyd etmək istəyirəm ki, hazırda İsraildə istifadə olunan neftin 65 faizi Azərbaycandan gəlir. Azərbaycan isə İsraildən yüksək texnologiya məhsullarının ən vacib alıcısıdır.**

**Biz İsrail ilə Azərbaycanın bütün sahələrdə münasibətlərinin möhkəmlənməsi və dərinləşməsi istiqamətində işimizi bundan sonra da davam etdirəcəyik".**

Azərbaycanın paytaxtı Bakıda sonuncu görüşümüz Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə oldu. Cənab Hacıyev görüşdə bizə XXI əvvəlində Azərbaycanın nadir statusu və ölkələrimiz arasında münasibətlərin strateji əhəmiyyəti barədə danışdı.

O dedi: **"1991-ci ildə dövlət müstəqilliyinin bərpasından sonra İsrail ilə Azərbaycan arasında xüsusi münasibətlər yarandı. İsrail Azərbaycanın müstəqilliyini tanımış ilk ölkələrdən biri oldu. Bizim iqtisadi, siyasi, hərbi, mədəni və ticari münasibətlərimiz çox gözəldir. Təl-Əvivdən Bakıya birbaşa aviareyslər açılması sübut edir ki, ölkələrimiz arasında yaxşı sabit münasibətlər var. Pesax bayramı ərəfəsində bir gün ərzində Təl-Əvivdən Bakıya istirahət üçün 1000 nəfər israilli turist gəlib. Onlar Azərbaycan Hava Yollarının xidmətlərindən istifadə ediblər".**

Azərbaycanda həyata keçirilmiş demokratik dəyişikliklər barədə sualımızın cavabında Hikmət Hacıyev haqlı olaraq deyir: **"Heç də hər bir ölkə eyni demokratik modelə uyğun gəlmir. Bizim demokratiyanın cəmi 27 yaşı var. Demokratiya bir növ şüurların yarışıdır. Mülki hüquqlara, dini hüquqlara, siyasi hüquqlara nəzər salsanız görərsiniz ki, Azərbaycan bəzən onun imicinə ədalətsiz münasibətə görə əziyyət çəkir. Buna görə də biz buraya gələn, ölkəmizlə tanış olan, onun problemlərini anlayan, onları obyektiv qiymətləndirən və həqiqəti yaxından görən insanları yüksək qiymətləndiririk".**

Hikmət Hacıyev Bakıda koşer restoranı açılması barədə şövqlə danışdı. Qeyd etdi ki, kənd təsərrüfatından, təbabətdən başlamış müasir silahlara qədər İsrailin Azərbaycana təqdim etdiyi texnologiyalar çox vacibdir.

Hikmət Hacıyev deyib: **"Bu geosiyasi xəritədə Azərbaycan öz yerindədir, mən həmişə zarafatla deyirəm ki, xəritəyə fikir versəniz mənim ölkəm Şərqdən Qərbə uçan quşa oxşayır və əgər siz həmin quşun bir qanadını qırsanız o uçmayacaq. Buna görə də deyirik ki, bizə hər iki qanad lazımdır".**

# Hikmət Babaoğlu: Ölkəmizdə həyata keçirilən islahatları xalqın dəstəkləməsi anti-Azərbaycan qüvvələri narahat edir

Beynəlxalq anti-Azərbaycan şəbəkəsi son günlər yenidən fəallaşmağa başlayaraq ölkəmiz əleyhinə qarayaxma kampaniyasına start verib. Bu, əlbəttə, təsadüfi deyil. Çünki 2019-cu ildə Azərbaycan bir sıra mühüm əhəmiyyətli beynəlxalq layihələrini başa çatdıracaq, mühüm sazişlərə imza atacaq, ötən illərdə həyata keçirilən islahatların bazasında milli iqtisadiyyatın daha da böyüməsini təmin edəcək, beynəlxalq nüfuzundan istifadə etməklə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin həllində real nəticələr əldə etməyə çalışacaq, sosial islahatları davam etdirməklə, yeni, daha effektiv sosial-iqtisadi model yaratmaqla öz vətəndaşlarının rifahı üçün yeni əlverişli şərtlər formalaşdıracaq, ordu quruculuğu işini davam etdirəcək.



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu söyləyib. Deputat qeyd edib ki, hazırkı mürəkkəb beynəlxalq və regional şərtlər içərisində ölkəmizin əldə etdiyi bu qədər uğur, heç şübhəsiz, anti-Azərbaycan mövqeli mərkəzləri ciddi şəkildə narahat edir. Ən çox narahatlıq keçirən isə işğalçı Ermənistan və onun beynəlxalq havadarlarıdır.

Milli Məclisin deputatı qeyd edib ki, erməni simpatizanı olan bu beynəlxalq şəbəkə islamofob mərkəzləri və ölkəmizdə yaratmağa çalışdıqları "5-ci kalon" üzvlərini də səfərbər edərək Azərbaycanı gözdən salmaq, onun beynəlxalq nüfuzuna zərbə vurmaq istəyirlər. Bir qədər konkret ifadə etməyə çalışsaq görəcəyik ki, hazırda anti-Azərbaycan şəbəkənin ən çox siyasi istismara məruz qoyduğu mövzu Azərbaycanın Avropa İttifaqı ilə imzalayacağı strateji tərəfdaşlıq sazişidir. Bunun başlıca səbəbi həmin sazişdə Avropa İttifaqına üzv ölkələrin hamısı tərəfindən bir daha Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsinin öz əksini tapacağıdır. Bu, işğalçı Ermənistan və onun lobbisi ilə əlaqədar olan şəbəkəni ciddi şəkildə narahat edir. Çox maraqlıdır ki, Azərbaycandakı bəzi radikal müxalif marginallar da ölkəmizi məhz bu məsələdə tənqid etməklə əslində ermənilərlə sinxron hərəkət etdiklərini göstərirlər. Bunu isə Azərbaycan cəmiyyətinə guya Avropa İttifaqı ilə imzalanacaq sazişin milli maraqlarımıza cavab vermədiyi ilə izah etməyə çalışırlar. Ancaq, əlbəttə, ölkəmizdə hər kəs bunu başa düşür ki, radikallar eyni mərkəzdən sifariş almaqla milli maraqlarımıza qarşı əleyhdarlarımızla birgə çalışırlar.

Başqa bir mühüm məsələ ondan ibarətdir ki, bu il Cənub Qaz Dəhlizi layihəsi tamamlanacaq və beləliklə, ölkəmiz həm iqtisadi baxımdan daha da güclənəcək, həm də siyasi baxımdan beynəlxalq münasibətlər sistemində öz nüfuzunu bir qədər də artıracaq. Bu amil isə Dağlıq Qarabağ probleminin həllində bizi daha da güclü edəcək. Bu da işğalçı Ermənistanın lehinə deyil. Nəhayət, ən ümdə məsələlərdən biri Azərbaycanda həyata keçirilən kompleks islahatlar və onun xalq tərəfindən dəstəklənməsidir. "Opinion Way" sorğu şirkətinin anketlərində əksini tapan xalq-iqtidar birliyi nümunəsi də anti-Azərbaycan mərkəzlərin ciddi narahatlığına səbəb olub. Məsələ ondadır ki, Azərbaycanın inkişafına və müstəqil siyasətinə mane ola bilməyən güc mərkəzləri onu daxildən parçalamaqla zəiflətmək və beləliklə də Qarabağ problemini birdəfəlik yaddan çıxarmaq istəyirlər. Diqqət etsək görərik ki, nə xaricdə bizə qarşı fəaliyyət göstərən "mühacirət müxalifəti", nə də Azərbaycanda olan marginallaşmış müxalif qrup problemlərdən danışan zaman bir dəfə də olsun Qarabağ problemindən danışmırlar. Çünki onlar, sadəcə, anti-Azərbaycan mərkəzlərdən aldıqları təlimatla hərəkət edirlər. Bütün bunlar isə Azərbaycan xalqının diqqətindən əsla yayınmır və xalqımızı öz liderinin ətrafında daha sıx birləşməyə sövq edir.

# "Azərbaycanda regional inkişafın idarə olunmasında yeni istiqamətlər" mövzusunda respublika elmi konfransı keçirilib



Aprelin 22-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) "Azərbaycanda regional inkişafın idarə olunmasında yeni istiqamətlər" mövzusunda respublika elmi konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransın açılışını Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov və Milli Məclisin Regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə ediblər. Bildirilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son 16 ildə Azərbaycanda bütün sahələrdə yüksək nailiyyətlər qazanılıb, bölgələrdə sosial-iqtisadi inkişafla bağlı infrastruktur layihələri, köklü iqtisadi islahatlar həyata keçirilib, ölkəmizin beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artıb. Dövlət başçısı "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Fərman imzalayıb. Fərman ölkə regionlarının, o cümlədən kənd yerlərinin sosial-iqtisadi inkişafı sahəsində görülmüş işləri növbəti illərdə də davam etdirmək, eləcə də infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması, bölgələrdə yaşayan əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi məqsədi daşıyır.

Qeyd edilib ki, regionlarımızın inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə, əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan verib.

Daha sonra Yasamal bələdiyyəsinin üzvü Əli Əkbərli, Əmlak Məsələləri Dövlət Komitəsinin sektor müdiri Nurlan Verdiyev, Dövlət İdarəçilik Akademiyasının dekanı, professor Xatirə Hüseynova və akademiyanın dosenti Roza Əliyeva məruzə ilə çıxış ediblər.

Konfransın gündəliyi və seçilmiş istiqamətlər regional inkişafın idarə olunmasında innovativ proseslərin təhlili, perspektiv imkanların öyrənilməsinə həsr edilib. Bu sahədə əldə edilmiş uğurlar və gələcək inkişaf perspektivləri istiqamətində innovasiyaları təqdim etmək istəyən tədqiqatçılar, müəllim heyəti, mütəxəssislər fikir mübadiləsi aparıblar.

Konfransda Milli Məclis, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Hərbi Prokurorluq, Əmlak Məsələləri Dövlət Komitəsi, Ombudsman Aparatının Şəki Regional Mərkəzi, Mingəçevir "ASAN xidmət", Naftalan Şəhər İcra Hakimiyyəti, Qazax Rayon İcra Hakimiyyəti, Pirallahı Rayon İcra Hakimiyyəti, Beyləqan Rayon İcra Hakimiyyəti, Ağstafa Rayon İcra Hakimiyyəti, Yardımlı Rayon İcra Hakimiyyəti, Tərtər Rayon İcra Hakimiyyəti, Ağdaş Rayon İcra Hakimiyyəti, Zaqatala Rayon İcra Hakimiyyəti, Xəzər Rayon İcra Hakimiyyəti, Yasamal Bələdiyyəsi, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Qərb Universiteti və digər qurumların nümayəndələri iştirak ediblər.

Konfrans öz işini sessiyalarla davam etdirib.

# AZƏRTAC-ın ispan dili bölməsinin təqdimatı keçirilib

Azərbaycan Dillər Universitetində (ADU) Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) ispan dili bölməsinin təqdimatı keçirilib.



AZƏRTAC xəbər verir ki, təqdimat ADU-nun İspan Dili Mərkəzinin dəstəyi ilə təşkil olunub. Tədbiri açan informasiya agentliyinin ispan dili bölməsinin müdiri Nuridə Aslanova iştirakçılara AZƏRTAC-ın ispandilli veb-resursu haqqında məlumat verib. O qeyd edib ki, ölkəmizin həyatının bütün sahələrinə - iqtisadiyyat, mədəniyyət, turizm, Azərbaycan tarixinə dair ispan dilində geniş informasiya bazası yaradılıb. Ölkədə baş verən mühüm yeniliklər və hadisələr haqqında xəbərlər AZƏRTAC-ın saytının ispandilli versiyasında və sosial şəbəkələrdə yayılır.

Agentliyin ispan dili bölməsinin əməkdaşı Ülkər Əliyeva geniş təqdimatla çıxış edib. O bildirib ki, AZƏRTAC respublikanın aparıcı informasiya agentliyi, yerli və xarici KİV-lər üçün rəsmi dövlət informasiyasının yeganə mənbəyidir. Agentlik rəsmi məlumatlarla yanaşı, fasiləsiz olaraq 8 dildə - Azərbaycan, ingilis, rus, fransız, alman, ərəb, Çin və ispan dillərində ictimai-siyasi və iqtisadi mövzularda, habelə elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ətraf mühit və s. barədə dəqiq və operativ informasiya yayır.

AZƏRTAC ispandilli tərəfdaşları ilə informasiya mübadiləsini daha da gücləndirmək, Azərbaycanın siyasi, iqtisadi, mədəni və bir çox digər sahələrdə uğurları, ölkəmizdə keçirilən beynəlxalq tədbirlər barədə informasiyaların 400 milyonluq ispandilli auditoriyaya çatdırılması məqsədilə ispan dilində xəbər yayımına cari ilin yanvarından başlayıb. Agentlik üzvü olduğu beynəlxalq qurumlar və tərəfdaşlıq etdiyi agentliklərlə ispan dilində xəbər mübadiləsi aparır, ispandilli ölkələrin xəbər agentlikləri - İspaniyanın EFE, Argentinanın Telam, Paraqvayın IP, Kubanın Prensa Latina agentlikləri ilə sıx əməkdaşlıq edir.

ADU-nun İspan Dili Mərkəzinin rəhbəri Nərgiz Mədətova AZƏRTAC-a müsahibəsində qeyd edib ki, Azərbaycan haqqında xəbərlərin ispandilli auditoriyaya doğru, operativ olaraq informasiyanın mənbəyindən ötürülməsi təqdirəlayiq haldır. İndiyədək ispandilli tərəfdaşlarımızla ünsiyyətdə olduğumuz zaman onlar Azərbaycan haqqında informasiyaların azlığından şikayət ediblər. Ümidvaram ki, AZƏRTAC-ın ispan bölməsi ispandilli əhalinin Azərbaycan haqqında informasiyaya tələbatını ödəyəcək.

ADU-nun roman dilləri praktikası və nəzəriyyəsi kafedrasının müdiri Aynur Quliyeva AZƏRTAC-a açıqlamasında vurğulayıb ki, ispan dili ingilis və Çin dillərindən sonra dünyada ən çox danışılan üçüncü dildir, 21 ölkədə rəsmi dil olaraq qəbul edilib və BMT-nin 6 rəsmi dilindən biridir. Dilin yayılma coğrafiyası əsasən Avropa, Şimali Amerika və Cənubi Amerika qitələridir. Bu baxımdan AZƏRTAC-ın ispan dilində xəbər yayması rəsmi dövlət tədbirləri, Azərbaycanın həyata keçirdiyi mühüm beynəlxalq və regional layihələr barədə məlumatların, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair həqiqətlərin daha geniş auditoriyaya çatdırılması, ispandilli ölkələrdə erməni lobbisinin antiazərbaycan təbliğatına qarşı informasiya mübarizəsinin aparılması işinə böyük fayda verəcək.

İştirakçılara AZƏRTAC-ın fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Tədbirdə ADU-nun müəllim və tələbə heyəti iştirak edib.

# Hanoyda OANA İcraiyyə Komitəsinin 44-cü iclası başa çatıb



AZƏRTAC-ın sədrliyi və Vyetnamın VNA agentliyinin ev sahibliyi ilə Hanoyda keçirilən Asiya və Sakit Okean İnformasiya Agentlikləri Təşkilatının (OANA) İcraiyyə Komitəsinin 44-cü iclasının növbəti sessiyaları keçirilib.

Təşkilatın baş katibi Vüqar Seyidov görülən işlər və toplantının gündəliyi barədə məlumat verib.

Sonra çıxış edən OANA-nın prezidenti, AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov iclasda müzakirə edilən mövzulardan danışaraq hazırda xəbər agentlikləri qarşısında ciddi çağırışların dayandığını qeyd edib. **"Günümüzün ən aktual məsələsi isə feyk xəbərlərdir ki, informasiya agentlikləri üçün daha çox çətinliklər yarada bilər. Amma gündəlik işimizdə əsaslandığımız jurnalistika ənənələri yalan və çaşdırıcı xəbərlərin qarşısında bir sipərdir. OANA-da birləşən xəbər agentliklərinin hamısı çoxillik, hətta bir əsrə yaxın tarixə malik olan media qurumlarıdır. Ona görə də OANA həqiqətən ən etibarlı xəbər istehsalçılarının komandasıdır. Feyk xəbərlərin dövran etdiyi bir zamanda bu, bizim ən böyük üstünlüyümüz və ən böyük dəyərimizdir"**, - deyə OANA-nın prezidenti bildirib.

Aslan Aslanov OANA-nın fəaliyyətinin təkmilləşdirilməsi məsələlərinə diqqət çəkərək sədr olaraq AZƏRTAC-ın bu məqsədlə hazırladığı və ötən Tehran iclasında müzakirə olunan təkliflərin zərurətdən yarandığını bildirərək deyib: **"Bu zərurətlər nədir? Bunlar OANA-nın Nizamnaməsinin daha da təkmilləşdirilməsi, artıq 7 yaşına qədəm qoyan, daha köhnə texnologiyalara əsaslanan veb-saytın yenilənməsi, qabaqcıl üzv agentliklərin təcrübəsindən yararlanmaq kimi təşəbbüslərdir. Ona görə də həm indi, həm də gələcəkdə bu istiqamətdə istənilən təşəbbüsləri ümumi maraqlar naminə dəstəkləməyə hazırıq".**

Sonra baş katib Vüqar Seyidov İcraiyyə Komitəsinin işçi qrupu tərəfindən hazırlanan və təşkilatın Nizamnaməsinə daxil edilməsi üçün irəli sürülən təklifləri səsləndirib. Sənədə dəyişikliklər və əlavələr əsasən üzvlüyə qəbul qaydaları ilə bağlıdır. Təkliflər Komitə üzvləri tərəfindən razılıqla qəbul edilib və səsə qoyulması üçün bu ilin noyabrında Seulda keçiriləcək Baş Assambleyaya çıxarılmasına tövsiyə olunub.

İclasda Koreya Respublikasının Yonhap və Vyetnamın VNA agentliklərinin nümayəndələri feyk xəbərlərlə mübarizə, onların müəyyən edilməsi yolları ilə bağlı məruzələrlə çıxış ediblər.

Sonra OANA Mükəmməllik Mükafatı qalibinin müəyyən edilməsi üçün İcraiyyə Komitəsi üzvləri arasında keçirilən səsvermənin nəticələri açıqlanıb. Agentliklər müsabiqədə iştirak etmək üçün öz məhsullarını və layihələrini təqdim ediblər. Birinci yeri eyni sayda səs qazanan Sinxua və VNA agentlikləri tutub. İkinci yerdə TASS, üçüncü yerdə isə AZƏRTAC (Uşaq Bilik Portalı) qərarlaşıb.

Müsabiqədə ümumilikdə 12 agentlik öz layihəsi ilə iştirak edib.

Sonra Koreya Respublikasının Yonhap agentliyinin OANA-nın 17-ci Baş Assambleyasının Seulda keçirilməsi ilə bağlı görülən ilkin işlər barədə məlumatı təqdim edilib. Bolqarıstanın BTA agentliyinin rəsmisi isə bu ilin iyununda Sofiyada keçiriləcək Dünya Xəbər Agentlikləri Konqresinin təşkilati məsələlərindən danışıb.

İclasın bağlanış mərasimində çıxış edən Aslan Aslanov Dünya Xəbər Agentlikləri Konqresinin və OANA-nın sədri olaraq AZƏRTAC-ın BTA və Yonhap agentliklərinə təşkilati işlərdə kömək göstərdiyini və sədrlik başa çatanadək bu istiqamətdə səylərini əsirgəməyəcəyini vurğulayıb. İclasın işində fəal iştiraklarına görə o, İcraiyyə Komitəsinin üzvlərinə təşəkkürünü bildirib.

Bununla da OANA İcraiyyə Komitəsinin Hanoyda keçirilən 44-cü iclası başa çatıb.

# Hanoyda AZƏRTAC və Yonhap informasiya agentlikləri rəhbərlərinin görüşü olub

Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının (OANA) İcraiyyə Komitəsinin Hanoyda keçirilmiş 44-cü iclası çərçivəsində Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) İdarə Heyətinin sədri, OANA-nın prezidenti Aslan Aslanov və Koreyanın Yonhap Agentliyinin rəhbəri Ço Sunq-bo arasında görüş olub.



Qeyd edək ki, bu il noyabr ayında Seulda OANA-nın Baş Assambleyası keçiriləcək. Həmin tədbirdə bu təşkilata sədrlik AZƏRTAC-dan Yonhap Agentliyinə keçəcək.

AZƏRTAC-ın müxbiri Vüqar Seyidov Hanoydan xəbər verir ki, görüşdə tərəflər çoxillik əməkdaşlığın nəticələrinə nəzər salıb, qarşılıqlı münasibətlərin müsbət dinamikasını vurğulayıblar. Həmçinin münasibətlərin indiki vəziyyətindən məmnunluq ifadə olunub, mövcud əlaqələrin həm ikitərəfli çərçivədə, həm də OANA formatında genişləndirilməsinin zəruriliyi qeyd edilib.

Cənubi Koreya və Azərbaycan, AZƏRTAC və Yonhap arasında münasibətlərin dostluq xarakteri daşıdığını vurğulayan Aslan Aslanov Seula səfərini, koreyalı həmkarlarının işi ilə tanışlığını, qarşılıqlı xəbər mübadiləsinə yol açan əməkdaşlıq sazişinin imzalanmasını xatırladıb.

AZƏRTAC-ın İdarə Heyətinin sədri daha sonra bildirib ki, Azərbaycanda onlarca Koreya şirkəti işləyir. Həmsöhbətini Bakıya dəvət edən A.Aslanov vurğulayıb ki, Yonhapın rəhbəri ölkəmizə səfəri zamanı Koreya məhsullarını Azərbaycanın hər yerində görə biləcək: Bakının yollarındakı avtomobillər, müəssisələrin ofislərindəki məişət texnikası, sakinlərin istifadə etdikləri kommunikasiya vasitələri və sair.

Yonhapın rəhbəri Ço Sunq-bo dəvətə görə OANA prezidentinə təşəkkür edib və iki ölkə arasında münasibətlərin yüksək səviyyəsindən məmnunluğunu bildirib. O, iki dost agentliyin əməkdaşlığı daha da inkişaf etdirmək istiqamətində səyləri artırmasının zəruriliyini vurğulayıb. Qeyd edib ki, bu məqsədlə hər iki ölkənin nümayəndələrindən ibarət qrupların həm təcrübə mübadiləsi aparmaq, həm də öz həmkarlarının nailiyyətləri ilə tanışlığı üçün qarşılıqlı səfərlərinin təşkil edilməsi faydalı olardı.

Xatırladaq ki, 2016-cı il noyabrın 16-18-də Bakıda Heydər Əliyev Fondunun və AZƏRTAC-ın təşkilati dəstəyi ilə Dünya Xəbər Agentliklərinin V Konqresi, OANA-nın XVI Baş Assambleyası keçirilib. Konqresin və Assambleyanın Heydər Əliyev Mərkəzində keçirilmiş birgə açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev iştirak edib və geniş nitq söyləyib. Beləliklə, 2016-2019-cu illərdə həm Dünya Xəbər Agentlikləri Konqresinə, həm də OANA-ya sədrlik AZƏRTAC-a keçib.

AZƏRTAC-ın sədrliyi dövründə OANA İcraiyyə Komitəsinin Beyrut, Tehran və Hanoyda keçirilən iclaslarında təşkilatın fəaliyyətinin təkmilləşdirilməsi, müasir medianın aktual problemləri, xüsusən feyk xəbərlərlə mübarizə sahəsində qarşıda duran vəzifələrlə bağlı işgüzar müzakirələr aparılıb. Bütün bunlar təşkilatın müasirləşməsi, onun saytının funksionallığının artması işinə töhfə verib.

# Vyetnam KİV-ləri OANA İcraiyyə Komitəsinin 44-cü iclasına böyük diqqət ayırıb







Vyetnamın kütləvi informasiya vasitələri aprelin 19-dan 21-dək Hanoyda AZƏRTAC-ın sədrliyi və Vyetnam Xəbər Agentliyinin (VNA) təşkilatçılığı ilə keçirilmiş Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) İcraiyyə Komitəsinin 44-cü iclasına böyük diqqət ayırıb.

AZƏRTAC xəbər verir ki, VNA, hökumətin rəsmi xəbər portalı Chinhphu.vn, Vyetnam Kommunist Partiyasının rəsmi mətbu orqanı "Nhan Dan" qəzeti, Vietnam+, Phahluatplus.vn, Bacgiang.com.vn, Baotintuc.vn, La34.com.vn, Baolangson.vn, Quehuongonline.vn, Baobinhdinh.com.vn, Tapchithongtindoingoai.vn, Thethaovanhoa.vn, Danviet.vn, Daidoanket.vn, Vietnamnet.vn onlayn qəzet və nəşrləri, "Vietnam" jurnalı, VTV kanalı, "Nghe An" telekanalı, Vyetnam Xalq Ordusunun rəsmi qəzeti və digər KİV-lər iclasın açılış mərasimi və gedişi, fotosərgi, Vyetnam Sosialist Respublikasının Baş naziri Nguyen Xuan Phukun iclasın bir qrup iştirakçısını qəbul etməsi, iclas iştirakçılarının Vyetnamın Kuanqnin vilayətinə səfəri və vilayət hökumətinin rəhbəri Nquyen Duk Lonq ilə görüşlərinə dair geniş xəbərlər, reportajlar, analitik materiallar təqdim ediblər.

Vyetnam Xəbər Agentliyi və ingilisdilli gündəlik "Vietnam news" qəzeti OANA-nın prezidenti, AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov ilə müsahibə əsasında hazırlanan materiallarda təşkilatın işində müşahidə olunan fəallıqdan söz açılıb. Qeyd olunub ki, AZƏRTAC-ın 2016-2019-cu illəri əhatə edən sədrliyi dövründə OANA-nın internet səhifəsində xəbər yerləşdirən agentliklərin sayı 8-dən 24-ə çatıb. Bundan başqa, AZƏRTAC-ın OANA-da daimi katibliyin və təlim akademiyasının yaradılması ilə bağlı təkliflərindən də söz açılıb.

Xatırladaq ki, OANA İcraiyyə Komitəsinin 44-cü iclasında Türkiyənin Anadolu, Rusiyanın TASS, Avstraliyanın AAP, Cənubi Koreyanın Yonhap, Ərəb Əmirliklərinin WAM, Çinin Sinxua, İndoneziyanın Antara, Malayziyanın Bernama, İranın İRNA, Yaponiyanın Kyodo və digər agentliklərin rəhbərləri və nümayəndələri iştirak edirlər. İclasda OANA-nın cari məsələləri, media qarşısında duran çağırışlar, feyk xəbərlərlə mübarizə, faktların yoxlanması, agentliklərin üzləşdiyi problemlər müzakirə edilib, təşkilatın Mükəmməllik Mükafatının qalibləri elan olunub.

# Fransanın Nant şəhərində Azərbaycan məktəbi açılıb




Aprelin 20-də Fransanın Nant şəhərində Azərbaycan məktəbinin açılışı olub. Bu məktəb Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın tapşırıq və tövsiyələrinə əsasən azərbaycanlıların kompakt yaşadığı Nant şəhərində yaradılıb. Məktəb üçün kirayəyə götürülən yeri 3 ay ərzində Fransa Azərbaycanlılarının Koordinasiya Şurası və Azərbaycan İcması təmir edib.

Diasporla İş üzrə Dövlət Komitəsindən qəzetimizə verilən məlumata görə, "Qarabağ" məktəbi adlandırılan təhsil ocağının açılışına bu ölkədə yaşayan 90 nəfərə yaxın azərbaycanlı qatılıb. Məktəb fəaliyyətə başlayana qədər ərazidə yaşayan ailələrdən 25 uşaq məktəbdə şagird kimi qeydiyyatdan keçib.

Məktəbin açılışında Azərbaycanın Fransadakı səfirliyinin siyasi məsələlər üzrə müşaviri Eldar Məmmədov, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Türkiyənin Nantdakı baş konsulu Ebrar Çubukçu, Azərbaycanın Fransadakı səfirliyinin konsulluq məsələlərinə məsul katibi Zaur Fərhadov, Fransa Azərbaycanlıları Koordinasiya Şurasının əlaqələndiricisi - Nantda fəaliyyət göstərən Fransa Azərbaycanlıları Mədəniyyət Assosiasiyasının rəhbəri Toğrul Zeynalov, eyni zamanda, Fransada Azərbaycanlıların Koordinasiya Şurasının üzvü olan təşkilatların sədr və nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Fuad Muradov Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırığı ilə açılan "Qarabağ" məktəbinin əhəmiyyətindən danışıb və bu cür uğurlu layihələrin davamlı olmasının vacibliyini qeyd edib. Məktəbə "Qarabağ" adının verilməsinin də xüsusi bir siyasi məna kəsb etdiyini bildirən sədr gələcəkdə bu adda məktəblərin açılmasının daha da geniş vüsət alacağını bildirib.

O, eyni zamanda, Fransada Azərbaycan və türk diasporlarının birgə fəaliyyətinin vacibliyindən də danışıb.

Türkiyənin Nantdakı baş konsulu Ebrar Çubukçu çıxışında qeyd edib ki, Nantda Azərbaycan məktəbinin açılması vacib və əhəmiyyətli addımdır. O bildirib ki, bu məktəbin yaxınlığında türk dərnəyi fəaliyyət göstərir və gələcəkdə məktəblə dərnək arasında sıx əlaqə qurulacaq.

Açılış mərasimində digər çıxış edənlər də Fransada belə bir məktəbin yaradılmasının mühüm addım olduğunu diqqətə çatdırıblar. Əminliklə qeyd ediblər ki, dövlətimizin başçısı tərəfindən uğurla həyata keçirilən diaspor siyasəti sayəsində gələcəkdə daha böyük nailiyyətlər əldə olunacaq.

Yeni məktəbdə kitabxana da fəaliyyət göstərir ki, burada da ölkəmiz haqqında həm fransız, həm də Azərbaycan dilində kitablar toplanıb və gələcəkdə bu kitabxananın Komitə tərəfindən daha da zənginləşdirilməsi nəzərdə tutulub.

Məktəbin açılışında milli geyimli uşaqlar şeirlər söyləyib, "Sarı gəlin" mahnısının sədaları altında rəqs edib, yallı gediblər.

**MÜŞFİQƏ**

# Televiziya incəsənət proqramları milli-mənəvi dəyərlər sistemində



Azərbaycanın müstəqilliyi ölkədə KİV-in azad inkişafını, xalqımızın qloballaşan dünyada özünün milli-mənəvi dəyərlər sistemində yaradıcı fəallığının artmasını, xalq sənətinin, mədəniyyətimizin zənginləşdirilməsi prosesini gücləndirdi. Şübhəsiz ki, bu prosesdə KİV, o cümlədən televiziyanın rolu xüsusi əhəmiyyətə malikdir. Heç şübhəsiz, zəngin tarixə məxsus incəsənətin milli çalarlarını obrazlı, gerçəkliyin estetikasını, onun yaradıcılıq qüdrətini geniş şəkildə xalqa nümayiş etdirmək medianın və xüsusilə televiziyanın öhdəsinə düşür. İstər sovet dönəmində, istərsə də müstəqillik dövründə Azərbaycanın milli dəyərlər sisteminə həmişə xüsusi diqqət yetirən Ulu Öndər Heydər Əliyev bu sahədə televiziyanın imkanlarını yüksək qiymətləndirirdi. O, çıxışlarının birində **"Televiziya böyük bir aləmdir... indi heç birimiz özümüzü televiziyasız təsəvvür edə bilmərik"**, - deyə qeyd etmişdi. İncəsənətin cəmiyyətə çatdırılmasında televiziyanın rolunu yüksək qiymətləndirən Ümummilli Lider Heydər Əliyevin qeyd etdiyi kimi: **"Televiziya xalq ilə, vətəndaşlarımızla kütləvi informasiya orqanları arasında əlaqə yaradır... Teatrı biz vaxtilə çox yüksək qiymətləndirirdik, bu gün də yüksək qiymətləndiririk. Çünki insanların estetik tərbiyəsində, onların mədəni səviyyəsinin artmasında, insanların mənəvi cəhətdən formalaşmasında teatr həmişə çox böyük rol oynamışdır. Sonra teatrla bərabər kino bu rolu oynamağa başladı. Dünyada televiziya meydana gələndən sonra televiziya bu iki mühüm sahənin fəaliyyətini, ola bilər, bir qədər məhdudlaşdırsa da, eyni zamanda, onların əldə etdiyi nailiyyətləri geniş kütlələrə çatdırmaq üçün gözəl, ən gərəkli vasitə oldu"**.

Ulu Öndər Heydər Əliyev Azərbaycan televiziyasının işçilərinə onların peşə bayramı münasibətilə ünvanladığı təbrik məktubunda bu media vasitəsinin mədəniyyət və incəsənətin təbliğindəki rolunu yüksək qiymətləndirərək onu "xalqımızın yüksək əxlaqi dəyərlərinin, ideallarının, mədəniyyətinin, arzu və istəklərinin ifadəçisinə çevrilmiş bir vasitə" olaraq səciyyələndirirdi. Ulu Öndərin bu fikirləri, əslində, televiziyalarımızı cəmiyyətin özünüdərk prosesi üçün dəqiq və mükəmməl şəkildə özünün mütərəqqi yaradıcı istiqamətini təyin etməyə, həmçinin yeni yaradıcılıq axtarışlarına çağırırdı.

Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyev mükəmməl bir məktəb yaratdı. Həmin məktəbin sədaqətli davamçısı Prezident İlham Əliyev incəsənətimizin qorunması və inkişafına çox böyük diqqət yetirməkdədir. Prezident İlham Əliyev **"Azərbaycan haqqında reallıqlar, həqiqətlər dünya ictimaiyyətinə çatdırılmalıdır. Azərbaycanın qədim tarixi var, Azərbaycanın çox zəngin mədəniyyəti, incəsənəti, mədəni irsi var. Bu haqda dünyada mövcud olan məlumatlar, informasiyalar çox azdır, çox aşağı səviyyədədir. Bu sahədə də böyük işlər görmək lazımdır"**, - deyə bildirir. Dövlət başçısının bu fikri televiziyalarımız qarşısında çox mühüm vəzifələr qoyur, Azərbaycanın özünün yaratdığı süni peyk vasitəsilə dünyaya yayımlanan telekanallarımıza milli dəyərlərimizi, o cümlədən incəsənətimizi dünyaya tanıtdırmağa bir çağırışdır. Televiziyalar bu sahədə çox böyük yaradıcılıq işi görməkdədirlər.

Prezident İlham Əliyev daim milli-mədəni irsimizə, maarifçilik ideyalarına xüsusi diqqət göstərir. Buna misal olaraq ölkə başçısının Şəki rayonunda ictimaiyyət nümayəndələri ilə görüşündə dediyi sözləri xatırlatmaq yerinə düşər: **"Bizim zəngin tarixi-mədəni irsimiz qorunub saxlanılır. Biz bu məsələyə də çox böyük diqqət göstərməliyik. Mən çox şadam ki, Şəki xanlarının sarayı artıq bərpa olunubdur. Bu, böyük hadisədir. Bu bölgədə - Şəkidə və ətraf rayonlarda Azərbaycan mədəniyyətinin çox dəyərli abidələri vardır. Azərbaycanda bütün tarixi abidələr qorunub saxlanılır. Azərbaycanda dözümlülük var, tolerantlıq var. Bütün millətlərin nümayəndələri, bütün dinlərin nümayəndələri ilə bir ailə kimi yaşayır"**.

Bu kontekstdə bir faktı diqqətə çatdırmaq məqsədəmüvafiq olar. İctimai Televiziya yarandığı dövrdən Şəkidə, Qəbələdə, Oğuzda, Balakəndə, Qaxda və s. regionlarda tarixi abidələrimizi, tarixi memarlığı, incəsənətimizin təsviri sənət incilərini özündə ehtiva edən qalalar, abidələr və başqa millətlərə xas olan kilsələr, sinaqoqlar, katolik kilsə nümunələrini əks etdirən otuzdan çox sənədli film hazırlanmış və tamaşaçılara təqdim edilmişdir. Bu film və proqramları sovet dönəmində indiki kimi milli ruhda yaratmaq mümkün deyildi. Hətta belə bir faktı da qeyd etməliyik ki, televiziya sənədli filmi bir proqram formatı kimi daha artıq maliyyə vəsaiti tələb etdiyinə görə, sovet hakimiyyəti onlara büdcədən vəsait ayırmağı artıq xərc hesab edirdi. Ona görə də televiziyanın proqram şəbəkəsində özlüyündə mühüm yer tutan sənədli filmlər sayca az miqdarda idi. Bu sənədli filmlərin maarifçilik baxımından xüsusi önəm daşıdığını dərk edən Azərbaycan dövləti öz müstəqilliyini qazandığı ilk vaxtlardan məhz sənədli televiziya filmlərinin çəkilib ərsəyə gəlməsi üçün çox böyük vəsait ayırmış və ayırmaqdadır. Hətta dövlət və özəl telekanalların büdcəsindən əlavə, Azərbaycan Milli Televiziya və Radio Şurası tərəfindən bu sahəyə böyük vəsait ayrılması milli-mənəvi dəyərlərin qorunmasına göstərilən diqqətin bariz nümunəsidir.

Ölkəmizdə mədəni sferanın bütün sahələrinin inkişafı və təşəkkülü istiqamətində siyasətin həyata keçirilməsində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin üzərinə də mühüm vəzifələr düşür. Bu nazirlik regionlarda, paytaxtda olan incəsənət nümunələrinin təbliği sahəsində dövlət siyasətini həyata keçirmək məqsədilə kifayət qədər multimedia və elektron resurslar yaratmışdır... Belə resurs istifadəçiləri virtual şəkildə muzeylərimizdə incəsənət nümunələrinə gedib baxmağa maraq göstərirlər. Mədəniyyət Nazirliyi ayrı-ayrı televiziya kanalları ilə birgə layihələr hazırlayıb onu çoxsaylı tamaşaçı auditoriyasının ixtiyarına verir. İnformasiya texnologiyalarının indiki inkişaf mərhələsi müasir cəmiyyətə informativ əsərlərin istər bədii-pulisistik, istərsə də bədii-estetik üslubda daha tez və daha əhatəli çatdırılmasına imkan verir. Belə vasitələrdən, xüsusilə televiziyadan istifadə daha çox qənaətbəxşdir. Çünki XXI əsrin mədəniyyət məkanında baş verən fundamental dəyişikliklər, hər şeydən əvvəl, televiziyanın yaratdığı informasiya inqilabı ilə bağlıdır. Yaşadığımız dünya bu inqilab nəticəsində virtual reallıqlar hesabına genişlənmişdir.

Televiziya və digər elektron informasiya vasitələrinin hüdudsuz yayım imkanı bəzi qarşısıalınmaz və xoşagəlməz halların da yaranmasına səbəb olur. Belə ki, bəzi ölkələr digər ölkələrin tarixinə, milli-mənəvi və mədəni sərvətinə müdaxilə edə bilmə imkanından sui-istifadə edərək onları mənimsəyir, öz adlarına çıxırlar. Ermənistan dövlət səviyyəsində belə bir cəhdi göstərir, onlar Azərbaycan xalqının incəsənət nümunələri olan ney, balaban, kamança və s. kimi milli musiqi alətləri, "Sarı gəlin" xalq mahnısı, hətta bəzi muğam növlərini öz adlarına çıxmaqla bəzi xarici telekanallarda nümayiş etdirirlər. Və bu gün müstəqil Azərbaycan öz milli dəyərini, incəsənət əsərlərini yad təsirlərdən qorumaq, Ermənistan kimi bədnam ölkələrin digər xalqların sənət nümunələrini oğurlamasının qarşısını almaq üçün medianın verdiyi bütün imkanlardan istifadə edir.

Bir sözlə, Azərbaycanın qloballaşan dünyada öz mədəniyyətini və incəsənətini, bütövlükdə milli-mənəvi dəyərlərini qoruması və zənginləşdirməsi bu gün ciddi əhəmiyyət kəsb edir. Onu da vurğulamaq yerinə düşər ki, müasir dövrdə Avropa müxtəlif ölkələrin, xüsusilə Şərqin milli dəyərlər sisteminə müdaxilə etməyə, öz dəyərlərini süni şəkildə qəbul etdirməyə, bunu isə KİV, xüsusən televiziyanın imkanlarından istifadə etməklə həyata keçirməyə cəhd göstərir. Öz növbəsində Azərbaycanın televiziyaları bəhs edilən istiqamətdə gözlənilən hər hansı bir təhlükəni önləmək üçün üzərinə düşən vəzifəni yerinə yetirməyə çalışırlar.

**Fəxriyyə Lilpar İsayeva**

# Nazirlərin Moskva görüşü: ehtimallar, ssenarilər və ümidlər

Aprelin 15-də Azərbaycan və Ermənistan xarici işlər nazirləri Moskvada Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı müzakirələr aparıblar. Prosesdə Rusiyanın xarici işlər naziri də iştirak edib. Danışıqlardan sonra bəyanat yayılıb. Tərəflər bütövlükdə müzakirələri müsbət qiymətləndiriblər. Ekspertlər də müəyyən analizlər əsasında proqnozlar verməyə çalışırlar. Hiss olunur ki, bir sıra hallarda real vəziyyəti deyil, kimlərsə özlərinə sərf edən ssenariləri ortaya atırlar. Əslində, Moskva danışıqları Vyana görüşündə əldə edilən razılıqların məntiqi nəticəsidir. Onları bu kontekstdən çıxarmaq reallığı təhrif etməkdir. Vyanada isə müəyyən məqamlar öz əksini tapmışdı. Məsələn, danışıqlar formatı dəyişməzdir. Moskvada bunu inkar edəcək bir hadisə baş vermədi. Bundan əlavə, Azərbaycanın ərazi bütövlüyü vacib prinsip kimi nəzərə alınmalıdır. Moskvada da bu barədə danışılıb. Eyni zamanda, bir sıra humanitar addımların atılması da gündəmdə olub. Bütün bunlar nazirlərin Moskva görüşünün real mənzərəsini yaratmaq baxımından əhəmiyyətlidir. Həmin bağlılıqda bu görüşün geosiyasi təhlili üzərində bir qədər geniş dayanmağa ehtiyac görürük.




## VYANADAN SONRA: NÖVBƏTİ MÜZAKİRƏLƏRİN ÜMUMİ MƏQAMLARI

Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Moskvada apardıqları müzakirələrə ekspertlərin böyük maraq göstərməsi təsadüfi deyildi. Gözlənilirdi ki, danışıqlar hansısa məqamlara aydınlıq gətirəcək. Və ya bütövlükdə bu formatda danışıqların davam etdirilməsinin mənasının olub-olmaması dəqiqləşəcək. Bir sıra ekspertlər isə münaqişənin həllinin Rusiyanın əlinə keçdiyini qeyd edirdilər. İstənilən halda, danışıqların özünün baş tutması faktı kifayət qədər əhəmiyyətlidir.

Moskva danışıqlarında Rusiyanın xarici işlər naziri və ATƏT-in Minsk qrupunun həmsədrləri də iştirak ediblər. Yekunda ümumi bir bəyanat yayılıb ki, müzakirələrə müsbət qiymət verilib. Hətta orada vacib qərarlar alındığı da vurğulanıb. Rusiyanın xarici işlər naziri Sergey Lavrov isə müzakirələri belə qiymətləndirib: **"Moskvada Azərbaycan və Ermənistan xarici işlər nazirləri... arasında əldə edilən razılaşmalar faydalıdır"**.

Azərbaycan XİN-in başçısı da Moskva görüşünü müsbət qiymətləndirib. Danışıqların faydalı və substantiv keçdiyini ifadə edib. Müzakirələrdə müəyyən dərəcədə irəliləyişin olduğunu vurğulayan Azərbaycan XİN başçısı problem yaradan bir sıra incəliklər ətrafında geniş fikir mübadiləsinin aparıldığını deyib. O cümlədən Dağlıq Qarabağın gələcək statusu, təhlükəsizlik məsələləri, qoşunların işğal altında olan torpaqlardan çıxarılması və məcburi köçkünlərin geri qaytarılması ilə bağlı müzakirələr baş tutub. Bu kontekstdə humanitar məsələlərə də diqqət yetirilib. Jurnalistlərin Bakıya, İrəvana və Dağlıq Qarabağa səfərlərinin təşkili, cəbhə bölgəsində kənd təsərrüfatı ilə məşğul olan əhalinin təhlükəsizliyinin təmin olunması, həbsdə olanlarla yaxınlarının görüşmələri üçün şərait yaradılması kimi məsələlər də müzakirə edilib.

Ancaq tərəflər danışıqların detalları haqqında informasiya verməyiblər. Çünki konfidensiallığın saxlanması barədə öncədən razılıq olub. Erməni tərəfi də təxminən eyni qiymətləndirmə verib. Lakin onlar müəyyən məsələlərdə özlərinə sərf edən variantlardan bəhs edirlər. Erməni ekspertlər indi ikinci dərəcəli məsələlər üzrə razılığın əldə edilə bilməsindən danışırlar. Elə məsələlər ki, onlar birbaşa münaqişənin həllinə aparmır. Məsələn, həbsdə olanların yaxınları ilə görüşlərinin təşkili ümumi humanitar aspektdir. Bu, adi insanlıq əlamətidir və münaqişənin həllinə ciddi təsir etmir. Buna baxmayaraq, bu kimi addımlar qarşılıqlı etimadı artıra bilər.

Buna baxmayaraq, erməni ekspertlər Ermənistanın aktiv surətdə silahlandığını da vurğulayırlar. Onların fikirlərinə görə, Azərbaycanın hansı addımı atacağı bəlli olmaz. İstənilən vaxt situasiya partlaya bilər. Buna görə də Ermənistan rəhbərliyi gözlənilməz varianta hazır olmağa çalışır.

Nəhayət, baş nazir Nikol Paşinyan Moskva danışıqları kontekstində deyib ki, Azərbaycan seçimini etməlidir: ya sülh danışıqları, ya da müharibə. O, Ermənistanın müharibədən qorxmadığını da deyib. Eyni zamanda, Ermənistanın kimsəni müharibə ilə qorxutmadığını söyləyib. Guya Ermənistan həmişə sülhə sadiq olub.

Danışıqlarla bağlı Ermənistan tərəfdə danışılanlar sırasında münaqişənin həllində "Medvedev planı"na qayıdıldığı haqqında fikrin səsləndirilməsi də diqqəti çəkir. 2016-cı ildə Ermənistana səfər edən Dmitri Medvedev demişdi: **"Burada da bir çox siyasətçilər haqlı olaraq gələcək nəsillər qarşısında öz məsuliyyətlərini anlayırlar. Yəni ki, gələcək nəslə dondurulmuş deyil, həll olunmuş münaqişə ötürmək lazımdır. Problem odur ki, münaqişənin istənilən həlli bir tərəfi qane edəcək, digər tərəfi isə narazı salacaq. Əgər münaqişəni dondurulmuş vəziyyətdə saxlamaq, yəni onu tez bir zamanda həll etmək qərarından imtina etmək və münaqişənin həlli yolunda verilən insan itkiləri arasında seçim etməli olsam, mən yenə də ikincini seçərəm. Yaxşısı budur vəziyyət belə qalsın, amma qan tökülməsin"**.

## AZƏRBAYCANIN PLANI: MÜNAQİŞƏNİN HƏLLİNİN ƏSAS MODELİ

Bu, faktiki olaraq, münaqişənin dondurulmasına üstünlük vermək demək idi. İndi isə erməni ekspertlər iddia edirlər ki, 2016-cı ildə D.Medvedev gərginliyi artırmadan danışıqların aparılmasından bəhs etmişdi. Konkret olaraq, Rusiyanın baş naziri münaqişə zonasında texniki təchizat vasitəsilə tərəflərin davranışlarına nəzarət etmək fikrini irəli sürmüşdü. Burada da məqsəd aydındır: işğalı fakt kimi dəyişməz olaraq qəbul edib, hərbi əməliyyatların başlamasını əngəlləmək və Azərbaycanı güzəştlərə məcbur etmək. Lakin həm D.Medvedevin o zaman dediyi, həm də nazirlərin Moskva görüşündə müzakirə olunan məsələlər göstərir ki, erməni ekspertlər özlərinə sərf edən uydurma variantdan yazırlar. Biz, bilərəkdən erməni tərəfinin mövqeyini bir qədər geniş təqdim etməyə çalışdıq. Çünki onlar göstərir ki, İrəvan hələ də konstruktiv mövqeyə gəlməyib və vəziyyəti özünə sərf edən çərçivədə təqdim etməyə cəhd göstərir. Danışıqların real vəziyyəti isə başqa məqamlardan xəbər verir.

Moskva danışıqları Azərbaycan Prezidenti ilə Ermənistanın baş nazirinin Vyanada apardığı danışıqların məntiqi davamıdır. Martın 29-da Avstriya paytaxtında keçirilən görüşdə tərəflər xarici işlər nazirlərinin danışıqları davam etdirməsi və dialoqda olmaları barədə konkret razılığa gəliblər. Bu, onların yaydıqları bəyanatda da öz əksini tapıb. Eyni zamanda, həmin bəyanatda humanitar məsələlərə də toxunulur və bu istiqamətdə konkret addımların atılması tövsiyə edilirdi. Bunlardan başqa, Vyanada danışıqların formatının dəyişmədiyi və Ermənistanın prosesi dalana dirəmək cəhdinin iflasa uğradığı da aydın oldu. Çünki həm danışıqlarda, həm də yayılan sənəddə iki dövlətin imzası vardı: Azərbaycan və Ermənistanın. Bu o demək idi ki, Ermənistanın yeni iqtidarının israr etməyə çalışdığı yeni format qəbul olunmayıb. Moskvadakı danışıqlara da məhz bu kontekstdə baxmaq lazımdır.

Əvvəla, söhbət kiminsə təşəbbüsü ələ almasından gedə bilməz. Dövlət başçıları Vyanada görüşür, nazirlər isə Moskvada. Moskva görüşü niyə Kremlin təşəbbüsü ələ alması kimi təqdim edilməlidir? Görünür, hələ də bir sıra dairələr münaqişənin ədalətli həllinə çalışmaqdan çox, hansısa böyük dövlətin marağına qulluq etməyə üstünlük verir. Təəssüf ki, onların sırasında Azərbaycanda olanlar da vardır.

İkincisi, danışıqların nəticələri barədə deyilənlər göstərir ki, başlıca olaraq fikir mübadiləsi davam etdirilib və Ermənistanda yeni hakimiyyətə gələnlərin nəzərinə çatdırılıb ki, münaqişə, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmasa, həll edilə bilməz. Ermənistan işğalçı qüvvələri zəbt etdikləri Azərbaycan ərazilərindən çəkilməli, yurdlarından didərgin salınmış Azərbaycan vətəndaşları geri qaytarılmalıdırlar. Bütün bunlardan sonra digər məsələlər konkret həllini tapa bilər.

O başqa məsələdir ki, Azərbaycan heç zaman insani, humanitar məsələlərin həllinə etiraz etməyib. Buraya ilk növbədə girovların dəyişdirilməsi daxildir. Ancaq yenə də İrəvan bu məsələni təxirə salmağa çalışır. Bundan əlavə, həbsdə olanların yaxınları ilə görüşlərin təşkilinə Azərbaycanın etirazı yoxdur. Bunlarla yanaşı, erməni jurnalistlərin Bakıya, azərbaycanlı jurnalistlərin isə İrəvana səfərləri qəbul edilə bilər. Çünki belə ünsiyyətdə daha yaxşı aydın olur ki, işğalçı kimdir və real sülh üçün o, hansı addımları atmalıdır. Erməni jurnalistə Bakıda bunu aydınca başa sala bilərlər. Eyni zamanda, İrəvanda azərbaycanlı jurnalist oradakılara eyni həqiqəti bir daha çatdıra bilər.

Bunlar onu göstərir ki, Moskva danışıqlarını müsbət qiymətləndirməklə yanaşı, onu hansısa kənar qüvvənin siyasi uğuru kimi qiymətləndirmək də doğru deyil. Azərbaycan xalqı çox belə manevrləri görüb. Onu aldatmaq mümkün deyildir. Real olanı budur ki, Azərbaycan dövləti və cəmiyyəti bir yumruq kimi birləşib, ərazi bütövlüyünü bərpa etməklə məşğuldur. Burada kiminsə qalib gəlməsi və ya uduzması özlüyündə hədəf deyil. Hədəf torpaqların işğaldan azad edilməsidir. Moskvada aparılan danışıqlar bu yolda uğurlu addımlardan biri olacaqsa, çox yaxşı. Bunu isə zaman göstərəcək.

**Newtimes.az**

# "Nar" Azərbaycan Qran Prisi üçün texniki hazırlıqları başa çatdırıb

Ölkənin ən gənc mobil operatoru "Nar" 26-28 aprel tarixlərində paytaxtımızda baş tutacaq "Formula-1 Azərbaycan Qran-Prisi" yarışları zamanı həm yerli, həm də əcnəbi abunəçilərin telekommunikasiya tələblərinə tam şəkildə cavab vermək üçün hazırlıq işlərini başa çatdırıb.

Belə ki, mobil operator sürət həvəskarlarına ən yüksək səviyyədə mobil rabitə xidmətləri göstərmək üçün ərazinin şəbəkə testlərini tamamlayıb və şəbəkənin keyfiyyət ölçülərini müəyyənləşdirib. Yarış ərazisi və tədbir məkanlarında şəbəkə tutumu maksimum optimallaşdırılıb, yüksəkkeyfiyyətli internetdən kəsintisiz istifadə imkanını təmin etmək üçün 225Mbps-dək sürət təqdim edən 4G (LTE-A) şəbəkə tutumu quraşdırılıb. Dənizkənarı bulvar ərazisində yeddi mobil stansiya yaradılıb ki, bu stansiyaların yeri şəbəkə analizləri və Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin sorğularına əsasən təyin edilib.

Yarışların keçiriləcəyi ərazilərdə 24/7 rejimində çalışacaq "Nar" əməkdaşları şəbəkəyə nəzarət edəcək, şəbəkə istifadəçilərinə dəstək olacaqlar. "Nar" şəbəkəsi haqqında ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.

Qeyd edək ki, yaranan hər hansı bir sualla bağlı "Nar" abunəçiləri yüksəkkeyfiyyətli müştəri xidmətlərindən özlərinə rahat olan istənilən üsulla - Çağrı Mərkəzinə zəng etməklə, şəxsi kabinet, sosial şəbəkələr, SMS və elektron poçt üzərindən yazmaqla yararlana bilərlər.



YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Azərbaycanın regionlarında əhalinin su təchizatının yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır

*İndiyədək bölgələrdə rayon mərkəzləri ilə yanaşı 1050 kənd və qəsəbənin içməli su problemi öz həllini tapıb*

(əvvəli ötən sayımızda)



Ehtiyatları daxili mənbələr hesabına formalaşan Şəmkirçay su anbarı strateji əhəmiyyətli obyektdir. Ümumi su tutumu 165 milyon kubmetr olan anbarın potensial ehtiyatı dayanıqlı içməli su təchizatı baxımından mühüm əhəmiyyət daşıyır. Üstəlik burada toplanan yerüstü suların təbii durulmadan keçməsi suyun emalını asanlaşdırır. Bütün bunlar nəzərə alınaraq “Azərsu” ASC-nin sifarişi ilə su anbarının yaxınlığında məhsuldarlığı sutkada 140 min və ya saniyədə 1,6 kubmetr olan sutəmizləyici qurğu tikilir. Kompleksdə hər birinin tutumu 2500 kubmetr olan 3 ədəd su anbarı, anbarların idarəetmə otağı, xlorator qurğusu, elektrik yarımstansiyası inşa edilib, ehtiyat generator alınaraq ərazidə quraşdırılıb. Hazırda qurğuda emal avadanlıqlarının quraşdırılması işləri aparılır.

Qurğunun su təminatı Şəmkirçay su anbarından ayrılan suvarma kanalı hesabına aparılacaq və artıq kanaldan suyun götürülməsi üçün daşıyıcı xətlər tikilib. Buradan götürülən su qum süzgəclərində təmizləndikdən sonra anbarlara ötürüləcək. Anbarlara daxil olan və çıxan suyun miqdarı və təzyiqi, anbarlarda suyun həcmi, siyirtmələrin iş rejimi və işçi vəziyyəti, eləcə də suyun bulanıqlıq səviyyəsi və qalıq xlorun miqdarı onlayn rejimdə tənzimlənəcək. Bütün bu proseslərə SCADA sistemi vasitəsilə nəzarət olunacaq.

Regionlarda tikilən ən böyük içməli sutəmizləyici qurğunun bu ilin birinci yarısında istismara verilməsi nəzərdə tutulur. Müasir texnologiya əsasında tikilən yeni qurğu Gəncə, Şəmkir, Samux şəhərləri və ətraf kəndlərdə 300 mindən artıq insanı keyfiyyətli və fasiləsiz içməli su ilə təmin edəcək.

Şəmkirçay sutəmizləyici qurğusu istismara verildikdən sonra bu mənbədən Gəncə şəhərinə saniyədə 1141 litr, Şəmkir şəhərinə 187 litr, Samux şəhərinə 85 litr, kəndlərə isə 50 litr içməli su veriləcək. Şəmkirçay sutəmizləyici qurğusundan Gəncə şəhərinə suyun verilməsini təmin etmək üçün uzunluğu 27,5 km olan magistral su kəmərinin tikintisi artıq yekunlaşıb, bu kəmərdən Samux şəhəri və rayonun bəzi kəndlərinə, eləcə də Göygöl rayonunun bir sıra kəndlərinin su təchizatını yaxşılaşdırmaq məqsədilə çıxışlar verilib. Bununla yanaşı, qurğudan Şəmkir şəhərinədək 16,5 kilometr uzunluğunda magistral su kəməri tikilərək şəhər şəbəkəsinə birləşdirilib.

## QAZAX ŞƏHƏRİNİN SU VƏ KANALİZASİYA ŞƏBƏKƏSİ YENİDƏN QURULACAQ

Yaxın vaxtlarda “Azərsu” Açıq Səhmdar Cəmiyyəti tərəfindən Qazax şəhərində içməli su təchizatı və kanalizasiya infrastrukturlarının yenidən qurulması üzrə tikinti işlərinə start veriləcək. Bu münasibətlə Qazax rayon İcra Hakimiyyətində layihənin təqdimat mərasimi keçirilib. Rayon ictimaiyyətinin, “Azərsu” ASC-nin, məsləhətçi və podratçı təşkilatların nümayəndələrinin iştirak etdiyi təqdimatda layihənin məqsədi, faydası, tikinti-quraşdırma işlərinin icra qrafiki, ekoloji əhəmiyyəti barədə ətraflı məlumat verilib.

Tədbirdə Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov bölgələrin inkişafını təmin edən uğurlu islahatlardan, dövlət proqramlarından danışıb. O, cəbhə bölgəsində yerləşən Qazax rayonunda su və kanalizasiya layihəsinin icrasına başlanmasını əhalinin sosial problemlərinin həllinə göstərilən yüksək diqqət kimi dəyərləndirib.

“Azərsu” ASC-nin sədr müavini Etibar Məmmədov əhalinin içməli su və kanalizasiya xidmətləri ilə təminatının yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışıb. Qeyd edib ki, Prezident İlham Əliyev şəhər və rayon mərkəzlərinin, həmçinin kəndlərin içməli su təchizatının yaxşılaşdırılmasını daim diqqətdə saxlayır. Qazaxda icra olunacaq yeni layihə bu sahədə görülən işlərin davamıdır.

Layihə və podrat təşkilatlarının nümayəndələri tikinti-quraşdırma işlərinin vaxtında və keyfiyyətli icrası üçün bütün lazımi tədbirlərin görüləcəyini bildiriblər.

Sonra Qazax şəhərinin su təchizatı sisteminin və kanalizasiya şəbəkəsinin tikintisi layihəsinin təqdimatı olub. Təqdimatda bildirilib ki, Qazax şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi Azərbaycan hökuməti və İslam İnkişaf Bankı tərəfindən birgə maliyyələşdirilən “Azərbaycanın 6 rayonunda Milli Su Təchizatı və Kanalizasiya Proqramı” çərçivəsində həyata keçirilir. Layihə 2035-ci ilədək perspektiv inkişaf nəzərə alınmaqla Qazax şəhərində 26 min nəfərin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Bu layihə çərçivəsində gələcəkdə Qazax rayonunun Ağköynək, Qarapapaq, Hüseynbəyli və Ağstafa rayonunun Dağ Kəsəmən kəndlərinə də içməli suyun verilməsi nəzərdə tutulur. Ümumilikdə bu layihədən 45 min sakin faydalanacaq.

Qazax şəhərində əhalinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə 6,4 km magistral su kəməri, ümumi tutumu 10 min kubmetr olan 2 ədəd su anbarı, 106,4 km paylayıcı su şəbəkəsi inşa ediləcək. Paralel şəkildə şəhərin kanalizasiya infrastrukturu da yenidən qurulacaq. Şəhər ərazisində 82,3 km uzunluğunda kanalizasiya şəbəkəsi yaradılacaq və 4,4 km kanalizasiya kollektoru tikiləcək. Ümumilikdə şəhərdə 5870 ünvan su və kanalizasiya şəbəkələrinə qoşulacaq və sayğaclar quraşdırılacaq. İçməli su və kanalizasiya şəbəkələrinin tikintisinin 2020-ci ilin sonunda başa çatdırılması planlaşdırılır.

Şəhərdə həmçinin yaranan tullantı sularının təmizlənib zərərsizləşdirilməsi məqsədilə gələcəkdə məhsuldarlığı sutkada 10 min kubmetr olan tullantı sutəmizləyici qurğu da tikiləcək. Qeyd edək ki, Azərbaycan Hökuməti və İslam İnkişaf Bankı tərəfindən birgə maliyyələşdirilən layihə Qazax şəhəri ilə yanaşı, Tərtər, Gədəbəy, Daşkəsən və Astara şəhərlərini də əhatə edir. İndiyədək Tərtər, Gədəbəy və Daşkəsən şəhərlərində içməli su və kanalizasiya, Astara şəhərində isə içməli su şəbəkələrinin tikintisi başa çatıb.

## 2019-CU İLDƏ 10-DAN ÇOX ŞƏHƏRDƏ TULLANTI SU TƏMİZLƏYİCİ QURĞULARIN TİKİNTİSİNƏ BAŞLANILMASI NƏZƏRDƏ TUTULUR

“Azərsu” ASC-nin sədri Qorxmaz Hüseynov KİV-ə müsahibəsində perspektivdə görüləcək işlər barəsində də söhbət açıb. Qurumun 2019-cu il üçün planları kifayət qədər genişdir. Artıq 2018-ci ilin sonlarında cari ilin əsas prioritetləri müəyyənləşdirilib və ilin əvvəlindən nəzərdə tutulan işlərin icrasına başlanılıb.

Yuxarıda vurğulandığı kimi, bu ilin birinci yarısında regionlarda tikilən ən böyük sutəmizləyici qurğu - Şəmkirçay sutəmizləyici qurğular kompleksi istismara veriləcək. Cari ildə həmçinin Ağdaş, Qəbələ, Qax şəhərlərində su və kanalizasiya, Xırdalan və Şəmkir şəhərlərində isə su şəbəkələrinin tikintisi yekunlaşacaq. Eyni zamanda, Daşkəsən, Göyçay və Qəbələ şəhərlərində layihələrin son komponenti olan tullantı su təmizləyici qurğuların inşası tam başa çatacaq. Bununla yanaşı, Pirşağı qəsəbəsinin yaxınlığında Xəzər dənizinin sahilində tikilən müasir tullantı su təmizləyici qurğu da ilin sonuna qədər tikilib təhvil veriləcək. Eyni zamanda, 2019-cu ildə 10-dan çox şəhərdə tullantı su təmizləyici qurğuların tikintisinə başlanılması nəzərdə tutulur.

Qurum rəsmisinin bildirdiyinə görə, cari ildə büdcə vəsaiti hesabına Horadiz şəhərində yeni layihələrin icrasına başlanılacaq. Bu il içməli sudan əziyyət çəkən kəndlərdə layihələrin, binadaxili kommunikasiya xətlərinin yenilənməsi və sayğaclaşma işlərinin davam etdirilməsi nəzərdə tutulur. Regional idarələrin və laboratoriyaların yaradılması işləri tam başa çatdırılacaq.

Cari ildə Abşeron yarımadasında da işlər davam etdiriləcək. O cümlədən bir sıra Bakıətrafı kənd və qəsəbələrdə mərkəzləşdirilmiş su təchizatı infrastrukturlarının yaradılması işləri reallaşdırılacaq. Artıq Binəqədi rayonunun Binəqədi qəsəbəsi və Sulutəpə adlanan yaşayış massivində işlərə başlanılıb, Xəzər rayonunun qəsəbələrində tikintiyə hazılıq işləri görülür.

**“2019-cu ildə müştəri xidmətləri sahəsində də ciddi işlər aparılacaq. Abonentlərin bu xidmətlərdən maksimum istifadə etməsi üçün başladığımız tədbirlərin icrası davam etdiriləcək”,** - deyə Q.Hüseynov vurğulayıb.

Yeri gəlmişkən, Prezident İlham Əliyev ölkə ərazisində su layihələrinin icrası ilə bağlı yeni sərəncamlar imzalayıb. Dövlət başçısının cari il aprelin 10-da imzaladığı “Şəki şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı tədbirlər haqqında” Sərəncama əsasən Şəki şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.7.7-ci yarımbəndində göstərilmiş məbləğin 25 milyon manatı “Azərsu” Açıq Səhmdar Cəmiyyətinə ayrılıb. 2019-cu il 11 aprel tarixində isə Prezident İlham Əliyev “Mingəçevir şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı tədbirlər haqqında” Sərəncam imzalayıb. Sənədə əsasən, Mingəçevir şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.7.7-ci yarımbəndində göstərilmiş məbləğin 7 milyon manatı “Azərsu” Açıq Səhmdar Cəmiyyətinə ayrılıb.

**Mübariz ABDULLAYEV**

# Heydər Əliyev Mərkəzində “Oxu günü” keçirilib



Heydər Əliyev Mərkəzinin parkında ənənəvi olaraq təşkil edilən “Oxu günü” keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbir Heydər Əliyev Mərkəzi, Təhsil Nazirliyi, “Regional İnkişaf” İctimai Birliyinin təşkilatçılığı, Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikası Gənclər Fondunun və “Hədəf Nəşrləri”nin tərəfdaşlığı ilə reallaşıb.

“Gəlin birgə oxuyaq!” şüarı altında keçirilən “Oxu günü”nün məqsədi yeniyetmə və gənclər arasında mütaliə mədəniyyəti və oxu vərdişinin inkişafı, kitaba marağın artırılmasıdır.

Tədbirdə paytaxtın müxtəlif ümumtəhsil məktəblərinin və liseylərinin şagirdləri təqdimatlarla çıxış ediblər. Müxtəlif dram əsərlərindən səhnələr, tamaşalar təqdim olunub, ustad dərsləri, interaktiv yarışlar keçirilib. Üç saylı Uşaq-Gənclər İnkişaf Mərkəzinin bədii kollektivinin iştirakı ilə musiqili proqram təqdim olunub.

Tədbir çərçivəsində bədii-elmi kitabların sərgisində nəşriyyat və kitabxanalar öz stendlərində müxtəlif nəşrləri nümayiş etdiriblər.

Təhsil naziri Ceyhun Bayramov jurnalistlərə açıqlamasında bildirib ki, Beynəlxalq Oxu Günü ərəfəsində Bakı məktəblərinin iştirakı ilə keçirilən bu tədbir kitaba bağlılığı artırmağa yönəlib və mütaliə mədəniyyətinin formalaşmasına öz töhfəsini verəcək. Təhsil Nazirliyi il ərzində bu istiqamətdə müxtəlif tədbirlər həyata keçirir. C.Bayramov qeyd edib ki, əsas məqsəd müxtəlif üsullarla, fərqli yollarla uşaqlara kitab oxumağın üstünlüklərini aşılamaqdır. Çünki şagirdlərimizin şəxsiyyət kimi formalaşmasında, onların dünyagörüşünün artırılmasında mütaliə əvəzsiz rol oynayır. Nazir belə tədbirlərin davamlı şəkildə təşkil olunmasının vacibliyini vurğulayıb.

Xatırladaq ki, 1996-cı il aprelin 23-dən dünyada, 1997-ci ildən isə Azərbaycanda Ümumdünya Kitab və Müəllif Hüquqları Günü qeyd olunur. Bu barədə qərar 1995-ci ildə Parisdə, UNESCO-nun baş konfransında qəbul edilib.

# Paytaxtda əhali ilə fəal görüşlər aylığına start verilir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət qurumları rəhbərlərinin yerlərdə əhali ilə görüşlərinin keçirilməsi ilə bağlı tapşırığına uyğun olaraq yerlərdə sakinlərin arzu və istəklərinin, problemlərinin daha yaxından öyrənilib həllində yardımçı olunması məqsədilə Bakı Şəhər İcra Hakimiyyətinin təşəbbüsü ilə bu il aprel ayının 24-dən əhali ilə fəal görüşlər aylığına start verilir.

İcra Hakimiyyətindən AZƏRTAC-a bildiriblər ki, aylıq çərçivəsində paytaxt rayonlarında sakinlərlə “Açıq qapı” günləri keçiriləcək. Sakinlərin mənzil-məişət, kommunal və digər problemlərinin bilavasitə yerlərdə öyrənilməsi və aradan qaldırılması, onların dövlət qurumları nümayəndələri ilə təmaslarını daha da yaxınlaşdırmaq məqsədilə keçirilən aylıq çərçivəsində təşkil olunan “Açıq qapı” tədbirləri təsdiq olunmuş qrafikə uyğun olaraq hər bir rayonun Mənzil-Kommunal Təsərrüfatı Birliklərinin binalarında və qəsəbə mədəniyyət evlərində keçiriləcək. Görüşlərdə Bakı Şəhər İcra Hakimiyyətinin məsul nümayəndələri, yerli icra strukturlarının rəhbərləri ilə yanaşı, rayondakı təsərrüfat xidmətlərinin, o cümlədən elektrik, təbii qaz, su və kanalizasiya, istilik idarələrinin rəhbərləri də iştirak edəcək, sakinləri ən çox narahat edən sual və problemlər dinləniləcək, araşdırılacaq, aradan qaldırılması üçün tədbirlər görüləcək və sakinlərin sualları cavablandırılacaq.

Görüşlərdə həm də bütünlükdə Bakı şəhəri və müvafiq rayonun ərazisində görülən və görülməsi nəzərdə tutulan işlər barədə vətəndaşlara məlumat veriləcək.

*2019-cu il aprel-may aylarında Bakı şəhər sakinlərinin problemlərinin həlli ilə bağlı yerlərdə keçiriləcək “Açıq qapı” tədbirləri barədə məlumat:*

| № | Rayonun adı | Görüşün tarixi və vaxtı | Keçirilmə yeri | Qeyd |
|---|---|---|---|---|
| 1 | Nərimanov rayonu | 24.04.2019<br>16:00-20:00 | Nərimanov Rayon MKTB-nin binası, Əbdüləziz Dəmirçizadə küç. 22 | |
| 2 | Xəzər rayonu | 26.04.2019<br>16:00-20:00 | Xəzər Rayonu, Şımal Dres yaşayış sahəsi, Lev Starçuk küçəsi, Mədəniyyət evi | |
| 3 | Xətai rayonu | 29.04.2019<br>16:00-20:00 | Xətai Rayon MKTB-nin binası, Ramiz Quliyev küç. 23 | |
| 4 | Sabunçu rayonu | 01.05.2019<br>16:00-20:00 | Sabunçu Rayon MKTB-nin binası. Bakıxanov qəsəbəsi, Muxtar Fətəliyev 72 | |
| 5 | Binəqədi rayonu | 03.05.2019<br>16:00-20:00 | Binəqədi Rayon MKTB-nin binası, Əli Məmmədov küç. 10 | |
| 6 | Yasamal rayonu | 05.05.2019<br>11:00-15:00 | Yasamal Rayonu, 225 nömrəli məktəb, Ələsgər Ələkbərov küç. 8 | |
| 7 | Nizami rayonu | 07.05.2019<br>16:00-20:00 | Nizami Rayon MKTB-nin binası, R.Rüstəmov küç. 28 | |
| 8 | Nəsimi rayonu | 11.05.2019<br>15:00-19:00 | Nəsimi Rayon MKTB-nin binası, Səməd Vurğun küç. 112 | |
| 9 | Suraxanı rayonu | 13.05.2019<br>16:00-20:00 | Suraxanı Rayon MKTB-nin binası, Əhməd Mehbalıyev küç. 3 | |
| 10 | Qaradağ rayonu | 15.05.2019<br>16:00-20:00 | Qaradağ Rayon Mədəniyyət sarayı, Seymur Orucov küç. 23 | |
| 11 | Səbail rayonu | 17.05.2019<br>16:00-20:00 | Səbail Rayonu, 239 nömrəli məktəb. Badamdar qəsəbəsi, Məktəbli küçəsi 16 | |
| 12 | Pirallahı rayonu | 19.05.2019<br>11:00-15:00 | Pirallahı Rayon MKTB-nin binası, Kamil Rzayev küç. 25 | |

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4837
“Kapital Bank”ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
“AZƏRTAC”,
“Azadinform”, “SİA”
Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Buraxılışa məsul:
Zahid İLHAMOĞLU